**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ŞƏHRİYAR İBRAHİM oğlu ƏLİYEV**

# SOSİAL HÜQUQLARIN BEYNƏLXALQ HÜQUQİ TƏNZİMLƏNMƏSİ: NƏZƏRİYYƏ VƏ PRAKTİKA

**İXTİSAS: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq ümumi hüquq" kafedrasında yerinə yetirilmiş, geniş müzakirə edilərək əsas müdafiəyə tövsiyə edilmişdir.

| | |
|---|---|
| **Elmi məsləhətçilər:** | **Rusiya Federasiyasının Əməkdar hüquqşünası, hüquq üzrə elmlər doktoru, professor R.M.VALEYEV.**<br>**hüquq üzrə elmlər doktoru, professor R.F.MƏMMƏDOV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru, professor O.F.ƏFƏNDİYEV.**<br>**hüquq üzrə elmlər doktoru, professor İ.O.QULİYEV.**<br>**hüquq üzrə elmlər doktoru, professor L.H.HÜSEYNOV.** |
| **Aparıcı təşkilat:** | **AMEA-nın Hüquq və İnsan haqları İnstitutu** |

Dissertasiya işinin müdafiəsi "___" "_____________" 2016-cı il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2016-cı il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru: Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** İnsan hüquqlarının müdafiəsinin mühüm əsasları təbii hüquq nəzəriyyəsinə söykənir[1] və bunun təcəssümüdür ki, bütün humanitar dəyərlər arasında insan və vətəndaşların hüquq və azadlıqları mərkəzi yer tutmaqla digərləri üzərində aşkar üstünlük əldə edir. Bu isə öz təsdiqini bir sıra beynəlxalq hüquqi sənədlərin realizəsində tapır. Belə ki, insan hüquqlarının müdafiəsinin beynəlxalq-hüquqi əsasları olan insan hüquqlarının müdafiəsi sahəsində fundamental sənədlər - 1948-ci il tarixli İnsan hüquqları haqqında Ümumi Bəyannamə, 1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası, 1966-cı il tarixli beynəlxalq paktları və s. bütün dünya dövlətlərinin konstitusiyaları, qanunları, hüquqi aktları üzərində güclü təsirə malikdir[2], insan hüquq və azadlıqlarının müdafiəsi isə əksər dövlət proqramlarının, sosial islahatların, təsisatların əsas məqsədidir.

Lakin hazırkı dövrdə sosial inkişafın bir çox proqramlarının reallaşdırılması yolunda həm lokal, həm də qlobal xarakterli ciddi maneələrin mövcudluğu insan hüquqları sahəsində səmərəli fəaliyyətin həyata keçirilməsini mümkünsüz edir. Bunlara: nəzarət olunmayan demoqrafiya, sosial-iqtisadi və mədəni inkişafın geriliyi, savadsızlığın artması, səhiyyə sisteminin qeyri-qənaətbəxşliyi və kütləvi xarakterli bir sıra xəstəliklərin nəzarətdən çıxması, ərzaq problemi, yoxsulluq, keyfiyyətsiz qidalanma, təbii sərvətlərin tükənməsi, ətraf mühitin çirklənməsi, hərbi təhlükələrin saxlanması, narkomaniya-alkoqolizm, insan alveri, korrupsiya, təbii fəlakətlər, xarici işğal, irqi, etnik, dini və digər qarşıdurmaların qızışdırılması və s. aiddir. Sərvətlərin bölüşdürülməsində böyük bərabərsizlik və yüz milyonlarla insanın yaşadığı acınacaqlı şərait bu siyahını bir az da artırır: ümidsizlik və nifrət, çevrilişlər, kütləvi etirazlar və s. Bununla belə, qloballaşma yeni təhlükələr, terrorizm, işsizlik, qeyri-səmərəli sosial müdafiə və ümumilikdə sistematik şəkildə insan hüquqlarının pozulması hallarını da doğura bilir[3].

Bundan əlavə, bir sıra ölkələr beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına müvafiq olaraq insan hüquqlarının və əsas azadlıqların təmin olunmasını ali məqsədlərindən biri kimi qəbul etsələr də, sosial sferadakı beynəlxalq öhdəliklərini tam həcmdə yerinə yetirmirlər. Halbuki bu dövlətlərin hamısı BMT-nin üzvü, insan hüquqları sahəsində mühüm beynəlxalq sənədlərin iştirakçılarıdır və konstitusiyalarda beynəlxalq hüquqa hörmət etmək, onun normalarını milli hüquq sistemlərinə daxil etməklə bərabər, hətta

[1] İnternational Human Rights and Humanitarian Law. Treaties, Cases and Analysis. Martin F.F., Schnably S.J., Wilson R.J., Simon S J., Tushnet V.M. New-York, Cambridge University Press, 2006, p. 2.
[2] Cruft Rowan, Liao S. Matthew, Renzo Massimo. Philosophical Foundations of Human Rights. OUP Oxford, 2015, p. 1-2.
[3] Akrivopoulou Christina. Defending Human Rights and Democracy in the Era of Globalization. IGI Global, 2016, P. 16-17.



bunların öz daxili hüquq normaları üzərində prioriteti haqqında normalar təsbit edirlər[4]. Həmçinin daha ciddi olan sosial problemlərdən biri də konstitusiya tərəfindən nəzərdə tutulmuş, insanın hüquq və azadlıqlarını təmin etməyə yönəlmiş dövlət sisteminin bəzən öz vəzifələrinin öhdəsindən lazımınca gələ bilməməsidir. Bu özünü bir çox məsələlərdə göstərir: insan hüquqlarının çoxsaylı pozuntuları; insanın konstitusiyada təsbit olunmuş bir çox hüquqlarının reallaşması üçün lazımi mexanizm və şəraitin olmaması; vətəndaşların pozulmuş hüquqlarının müdafiəsində çətinliklər, dövlət tərəfindən özünün beynəlxalq öhdəliklərinin və hər bir insanın layiqli həyatını təmin etməyə yönəlmiş konstitusiya normalarının açıq-aşkar yerinə yetirilməməsi və s. Çox vaxt hakimiyyətlərin qanunsuzluğu və insan hüquqlarının hüquqi tənzimləmə mexanizminin olmaması, onların dəyəri barədə kütləvi ictimai şüurda yaranan ziddiyyətlər də daha ciddi sosial xarakterli neqativ nəticəli problemlərin qalxmasına şərait yaradır.

Qeyd edilən problemlər insan hüquqları qrupunda formalaşan və əsasən də ikinci "nəsil" hüquqlar kimi tanınan sosial hüquqlar üçün də səciyyəvidir. Qeyd etmək lazımdır ki, bu hüquqlar ikinci "nəsil" insan hüquqları adlandırılmasına baxmayaraq onlara ikinci dərəcəli hüquqlar kimi baxmaq olmaz, əksinə bu hüquqlar insanın ehtiyacsız və layiqli yaşamasına mühüm təminatdır, digər hüquqlarla birlikdə vahid vəhdət təşkil edir. Həmçinin bütün hakimiyyətlərin və beynəlxalq təşkilatların məqsədi insanın layiqli yaşayış səviyyəsinə nail olmaqdır ki, bu da son nəticədə sosial hüquqların təminat göstəricisində və sosial sferadakı vəziyyətdə təzahür olunur. Sosial hüquqlarla bağlı hələ də o tendensiya davam edir ki, hüquq ədəbiyyatında deyildiyi kimi: "cəmiyyətin bir üzvü kimi hər kəsin öz şəxsiyyətini azad inkişaf etdirmək üçün iqtisadi, sosial və mədəni sahələrdə zəruri olan hüquqlarını milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə, hər bir dövlətin quruluşu və resurslarına müvafiq olaraq həyata keçirmək hüququ tanınır"[5]. Bu isə sosial hüquqların realizəsində dövlətin məsuliyyətini azaltmış olur. Yəni, bir növ bu hüquqlar maliyyə ehtiyatları və digər səbəblərlə əlaqələndirilməklə iqtisadi inkişafdan asılı edilir. Reallıqlara və əldə olan elmi dəlillərə əsasən iqtisadi və sosial sferanın gələcək inkişafı və nəticəsi haqqında söylənilən fikirlərə istinad etdikdə isə sosial hüquqların təminatı ilə iqtisadi inkişaf arasında ciddi uyğunsuzluq müşahidə etmək olar. Məhz, qeyd edilənlər mövzunun bilavasitə aktuallığı ilə əlaqədardır, problem isə sosial hüquqların təbiəti nəzərə alınmaqla, normativ-hüquqi aktların və sosial sferadakı vəziyyətin təhlili əsasında həll edilməlidir.

[4] Лукашева Е.А. Социальное государство и защита прав граждан в условиях рыночных отношений. Социальное государство и защита прав человека. М., 1994, с. 12-19.
[5] Talmon Stefan. Essential Texts in International Law. Edward Elgar Publishing. 2016, p. 22.

Həmçinin insanların azad inkişafı və layiqli həyat səviyyəsini təmin edən şəraitin yaradılması ölkənin hər bir vətəndaşının əldə etməli olduğu sosial rifah və imkanların müəyyən məcmusunu nəzərdə tutur. Sosial hüquqların realizəsi bu və ya digər ölkədə sosial standartlar sisteminin mövcudluğu şəraitində mümkündür. Bu tip standartlar insan həyatının heç olmasa minimal səviyyədə keyfiyyət təminatına zəmanət verməlidir[6]. Son vaxtlar dünyada baş vermiş maliyyə-iqtisadi böhranlar iqtisadi hüquqlarla yanaşı, sosial hüquqlara da öz dağıdıcı təsirini göstərə bilmişdir. Hələ 2008-2009-cu illərin qlobal böhranları başlamamışdan öncə sosial hüquqlara lazımi səviyyədə diqqət ayrılmırdı. Təəssüflər olsun ki, belə vəziyyət hazırda da davam edir[7]. Bu da dünyada yoxsulluq, işsizlik, miqrasiya, savadsızlıq kimi sosial sahələrdə problemlərin intensiv şəkildə artmasına zəmin yaradır, qarşıya çıxan məsələlərin həlli istiqamətində isə beynəlxalq ictimaiyyətin səyləri gözlənilən nəticəni vermir.

Ayrı-ayrı sosial sahələrdə vəziyyətin təhlili də bu hüquqların təminatı barədə nikbin fikrə gəlməyə əsas vermir. Məsələn, sosial hüquqlar sistemində mühüm yer tutan əmək sferasında vəziyyəti məqbul hesab etmək olmaz. Çətinlik ondadır ki, işsizlərin əksəriyyətini əmək qabiliyyətinə malik gənclər təşkil edir, bunların da sayı 202 milyon nəfərdir. Son illərdə Avropa İttifaqı (Aİ) ölkələrində, xüsusən Yunanıstan və İspaniyada işsizlik səviyyəsi 27% artmışdır, bu göstərici gənclər arasında 50% həddinə çatmışdır. Hazırda dünyada 220 milyondan artıq gənc işçi qeyri-formal iqtisadi sahədə çalışır və onlar ifrat yoxsulluq vəziyyətində olmaqla yaşamaq uğrunda mübarizə aparır. Beynəlxalq Əmək Təşkilatının məlumatına əsasən işsiz dedikdə, işləmək istəyən, işləyə bilən, lakin iş yeri olmayan insan nəzərdə tutulur[8]. Anlayışdan da görünür ki, iş, məşğulluq insan həyatının ən vacib meyarlarından biridir, onun maddi və mənəvi bütövlüyünü təsdiq etmə imkanıdır. Sosial fenomen olan işsizliklə mübarizə və insanların ən zəruri sosial hüquqlarından hesab edilən məşğulluğun təmin edilməsi hər zaman olduğu kimi müasir dövrdə də aktuallığını qoruyub saxlamışdır.

İşsizlik və yoxsulluq məcburi əmək üçün də imkan açır, həm də bunun nəticəsidir ki, təkcə 2014-cü ildə 21 milyon nəfər bu fəaliyyətə cəlb edilmişdir[9]. Elmi-texniki tərəqqi də sosial sferaya təsirsiz ötüşmür və bunun nəticəsi olaraq yeni texnologiyanın tətbiqi məhz işsizlik səviyyəsinin yüksəlməsinin əsas səbəbi

[6] Тамбовцева В.Л. Институциональные изменения в социальной сфере российской экономики. Издательство МГУ имени М.В. Ломоносова, 2015, с. 48.
[7] Nolan Aoife. Economic and Social Rights after the Global Financial Crisis. Cambridge University Press. 2014, p. 2-3.
[8] Вечканов Г.С. Экономическая теория: Учебник для вузов. 4-е изд. Стандарт третьего поколения. СПб: Питер, 2016, с. 327.
[9] http://static.un.org/content/news.



kimi çıxış edir. Hesablamalara görə hazırkı yüzillikdə dünya iqtisadiyyatının idarə edilməsi üçün 20% əhali kifayət edəcək və bundan sonra işçi qüvvəsi tələb olunmayacaqdır. 20% əhali işləyəcək, cəmiyyətin həyatında aktiv iştirak edəcək, işi olmayan 80% əhalidə isə hədsiz problemlər yaranacaqdır[10]. Dünyada işçilərin yalnız 28%-i işsizliyə görə müavinət almaq hüququna malikdir. 80% işçilər Avropada bu hüquqlardan istifadə edir, bu göstərici Latın Amerikasında 38%, Yaxın Şərqdə 21%, Asiya-Sakit okean regionunda 17%, Afrikada 8% təşkil edir. Dünyada yalnız 12% işsizlər faktiki olaraq işsizliyə görə müavinət alır və burada da regional fərqlilik özünü göstərir: real olaraq bütün işsizlərin 64%-i Qərbi Avropada, 7%-i Asiya-Sakit okean regionu, 5% Latın Amerikası, 3% Yaxın Şərq və Afrikada təmin olunur[11].

Şübhəsizdir ki, sosial vəziyyətə mənfi təsir edən əhalinin miqrasiyası da dünyanın bütün ölkələrini və ərazisini əhatə edən qlobal bir proses kimi xarakterizə edilir. Müasir dünyamızda beynəlxalq miqrasiyanın artan miqyası mənşə ölkəsindən kənarda olan insanların sosial hüquqlarının realizəsi və sosial müdafiəsi barədə müzakirələri yenidən gündəmə gətirmişdir[12]. İnsanların miqrasiyası ilə sosial hüquqların realizə səmərəliliyi və ümumilikdə əhalinin sosial müdafiəsi bir-birilərini tamamlayan proseslər olmadığı üçün onlardan birinin artması digərinin problem aktuallığını qabardır, daha dəqiq desək, miqrasiya proseslərinin intensivliyi əhalinin sosial müdafiəsi məsələsini aktuallaşdırır[13].

Bundan başqa, sosial sferanın ən mühüm hissəsini əhatə edən səhiyyə sahəsindəki vəziyyəti, statistik rəqəmlərə istinadən daha acınacaqlı hesab etmək olar. Bunu dərman preparatlarının çatışmaması, tibbi xidmətin aşağı səviyyəsi, qarşısıalınmaz və yüksək artımla müşahidə olunan onkoloji, şəkər, QİÇS, vərəm və digər (yoluxucu, infeksion, qızılca, pnevmoniya və s.) xəstəliklərlə izah etmək olar. İnsanın yaşamaq hüququna bilavasitə təsir edən ətraf mühit də sosial hüquqların xüsusi tənzimetmə sferasını təşkil edir ki, bu sahədə də vəziyyət urəkaçan deyil və preventiv tədbirlər hələlik heç bir nəticə vermir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə havanın çirklənməsi hər il ümumilikdə 7 milyon adamın ölümünə səbəb olur. İqlim dəyişikliyinin kənd təsərrüfatına təsiri nəticəsində 2080-ci ildə yeməməzlikdən əziyyət çəkən insanların sayı təqribən 600 milyon artacaqdır. Elə həmin ildə 1,8 milyard adam su çatışmazlığı ilə üzləşə bilər[14].

[10] Мартин Г.-П., Шуманн Х. Западня глобализации: атака на процветание и демократию. Пер. с нем. М., Издательский дом «АЛЬПИНА», 2001, с.20.
[11] http://www.ilo.org.
[12] Feldman R., Sabates-Wheeler R. Migration and Social Protection: Claiming Social Rights Beyond Borders. Palgrave Macmillan UK. 2011, p. 3-8.
[13] Andreas Fischer-lescano. Transnationalisation of Social Rights. Intersentia Uitgevers N.V. 2016, p. 125.
[14] http://e-news.com.ua/show/226691.html

Sosial hüquqlarla təminat verilən müxtəlif sosial qrupların sosial müdafiəsi məsələlərinə də lazımınca əhəmiyyət verilmir. Belə ki, təkcə 2012-ci ildə dünyada beş yaşa qədər 6,6 milyon uşaq qarşısı alınması mümkün olan müəyyən səbəblərdən həlak olmuşdur. Təkcə kanalizasiya sisteminin qeyri-qənaətbəxş olması hər il 3 milyon uşağın ölümünə səbəb olur. Hazırda təqribən 168 milyon uşaq yaşamaq üçün işləmək məcburiyyətindədir, 85 milyon azyaşlı işçilər təhlükəli işlərə cəlb olunurlar[15]. Digər həlli vacib məsələlər sırasında müasir dövrün tələblərinə cavab verən sosial xidmətlərin olmamasıdır. Sosial xidmət sisteminin qeyri-səmərəliliyi isə nəticədə sosial bərabərsizlik mühitinin yaranması ilə cəmiyyətdə sosial təbəqələşməsi prosesinə səbəb olur, dövlətin isə belə bərabərsizliyin aradan qaldırmaq barədə tədbirləri hələlik lazımı nəticələr vermir. Sosial sferadakı gərginlik insanlar arasındakı digər fərqlərdə də özünü göstərir.

Sosial hüquqlar sferasında önəmli yerlərdən birini tutan təhsil sisteminin hazırkı durumu da sosial məsələlərin həllində ümidverici heç nə vəd etmir. Qloballaşma və inteqrasiya proseslərinin intensiv xarakter aldığı bir vaxtda təhsil sisteminin inkişafı və problemlərinin həlli geniş elmi-praktik fəaliyyət tələb edir. Bu problemlərin həlli həm milli, həm də beynəlxalq səviyyədə hərtərəfli standartların işlənib hazırlanmasını və realizəsini tələb edir. Bütövlükdə, təhsil, elm və mədəniyyət problemlərinin qlobal xarakteri yeni fəlsəfi baxış və praktika tələb edir ki, bu da son nəticədə dünya dövlətlərinin səylərinin birləşdirilməsi zərurətini yaradır. Statistik məlumatlar onu deməyə əsas verir ki, təhsil layiqli yaşamağın təminatı kimi bütün dövlətlər tərəfindən eyni cür qiymətləndirilmir və bu sahənin inkişafına lazımınca əhəmiyyət verilmir. Buna bir sıra faktorlar təsir edir: yaşayış səviyyəsinin aşağı olması; təhsilin inkişafına yetərincə maliyyə vəsaitinin ayrılmaması; korrupsiya; müxtəlif səbəblərdən (əmək haqqının aşağı səviyyəsi, təhsil mütəxəssislərinin öz peşələri ilə məşğul olmaması və s.) müəllim çatışmazlığı; pullu təhsil sisteminin üstünlük təşkil etməsi və fərqləndirilməsi; elmi işçilər üçün lazımlı maddi-texniki imkanlar üçün şəraitin yaradılmaması və s. Bu kimi fəaliyyət (fəaliyyətsizlik) isə öz təsirini kütləvi savadsızlıqda göstərir.

Yuxarıda qeyd edilənlər tədqiqat işinin bilavasitə aktuallığı ilə əlaqədardır. Buna əlavə olaraq qeyd etmək olar ki, yoxsulluğun dərəcəsi, bərabərsizliyin yüksək həddi sosial böhrana səbəb olmaqla inkişafı sarsıdır, iqtisadi tərəqqiyə mane olur, demokratik transformasiyanı zəiflədir, sosial birliyə və beynəlxalq siyasi sabitliyə ciddi təhlükə yaradır. Sosial böhran isə ömrün azalmasının, əqli və fiziki zəifliyin, əmək qabiliyyətinin itirilməsinin əsas səbəbi olmaqla psixi xəstəliklərə, ailələrin dağılmasına və narkotiklərdən sui-istifadəyə şərait yaradır. Bütün bunlar isə ilk növbədə insanın ən elementar sosial hüquqlarının

[15] http://static.un.org/content/news.



pozulmasına səbəb olur, xalqların və hər bir insanın sağlamlığını, dincliyini, təhlükəsizliyini, rifahını şübhə altında qoyur. Məhz bütün bunların fonunda dünyanın hər yerində insanın sosial hüquqlarının tanınması, reallaşması, gözlənilməsi və müdafiəsi uğrunda mübarizə genişlənir. Qeyd edilənlər hər bir dövlətin ərazisində sosial hüquqların tənzimlənməsini və bu istiqamətdə problemlərin həll edilməsini daha da aktuallaşdırmışdır. Belə əsas həm də hər bir dövlətin inkişafında beynəlxalq hüququn rolunun artması və məzmununun genişlənməsi, müasir elmi-texniki inkişaf, əsas hüquq və azadlıqlar sahəsində mühüm beynəlxalq-hüquqi sənədlərin qəbulu ilə də əlaqədardır. Xüsusilə qeyd etmək lazımdır ki, qloballaşma prosesi də sosial hüquqların tənzimlənməsində yeni yanaşma tələb edir ki, bu dövlətlərarası münasibətlərin məzmunca dəyişməsinə və daha da inkişaf etdirilməsinə birbaşa təsir edir.

Aktuallığın digər bir tərəfi ondan ibarətdir ki, hüquq ədəbiyyatında haqlı deyildiyi kimi, bəşəriyyətin iqtisadi, siyasi və təhsil inkişafına əsaslanan tərəqqisinin insanların əxlaqi cəhətdən təkmilləşməsinə, ümumi yumşaldılmasına, amansızlığın və təcavüzün azalmasına gətirib çıxaracağına dair olan ümidləri özünü doğrultmadı. İctimai rəy həmçinin hesab edir ki, XX əsrdə bəşəriyyətin əxlaqi inkişaf səviyyəsində artım olmamışdır, əksinə, mədəniyyətin səviyyəsi kəskin surətdə aşağı düşmüş, mənəviyyat kasadlaşmışdır. Bu gün fərdiyyətçilik, eqoizm, tamahkarlıq, şəxsi mənfəət, zorakılıq, qəddarlıq, hansı yol ilə olursa olsun varlanmağa cəhd etmə və s. hökmranlıq edir[16]. Qeyd edilənləri də sosial hüquqların reallaşması yolunda ən böyük maneələrdən hesab etmək olar.

Sosial hüquqların realizəsi məsələsində bir vacib məqama toxunmaq lazımdır ki, sosial hüquqların təmin edilməsi, müdafiəsi, realizəsi sferasında bütün nüanslar növbəti tendensiyaya söykənir – hər bir cəmiyyət yaşamaq üçün özünün minimum ehtiyaclarını özbaşına təmin edə bilməyən üzvlərinə yardım etmək vəzifəsi daşımalıdır. Əsas hüquqlar da daxil olmaqla qeyd edilən ehtiyacların realizəsi imkanlarının hər bir ölkənin əsas qanunlarında təsbit edilməsi konkret şəraitdə həlledici qərarların qəbul edilməsinə, gələcək elmi araşdırmalarda normativ baza rolunda çıxış etməsinə səmərəli şərait yaradır[17].

Haqqında söhbət açılan hüquqların müdafiəsinin təşkilati-hüquqi mexanizminin müasir dövrün tələblərinə, texniki tərəqqinin təsiri altında milli və beynəlxalq bazarlarda yaranmış şəraitə, təsərrüfat həyatının getdikcə kəskinləşən qloballaşmasına uyğunlaşdırılması zərurəti də mövzunun aktuallığı ilə sıx surətdə bağlıdır. Bu isə sosial hüquqların həm beynəlxalq, həm də milli hüquqi təminatlarının yaradılması, o cümlədən məhkəmə müdafiəsi hüququnun mümkünlüyünü asanlaşdıran xüsusi normativ hüquqi bazanın formalaşdırılması deməkdir. Çünki əksər

[16] Rəhimov İ.M. Cəzanın əxlaqiliyi haqqında. Bakı, 2016, s.203.
[17] Ray Brian. Engaging with Social Rights. Cambridge University Press. 2016, p. 19.

dövlətlərin sosial sferada apardığı işlərinin vəziyyəti daha parlaq şəkildə göstərir ki, elan olunmuş siyasi-hüquqi məqsəd və konstitusiya normaları ilə real sosial-iqtisadi və siyasi-hüquqi gerçəklik arasında aşkar ziddiyyətlər mövcuddur və belə bir şəraitdə sosial hüquqların tam mənada realizə olunmasından söhbət gedə bilməz. Başqa sözlə desək, sosial hüquqların tanınması ilə onların real həyata keçirilməsi arasında, ictimai aktuallıqla konstitusion təsbitinin yüksək səviyyəsi ilə bu hüquqların məzmununun nəzəri dərk edilməsinin əsaslandırılmamış aşağı səviyyəsi arasında, ayrı-ayrı sosial hüquq institutlarının meydana gəlməsi ilə dövlət idarəetmə sistemində yaranmış ciddi uyğunsuzluğun müşayiət olunması da sosial problemlərin həllində yeni yanaşma tələb edir.

Dissertasiya işi Azərbaycan Respublikası (AR) təcrübəsinin öyrənilməsi istiqamətində də mühüm əhəmiyyət kəsb edir. AR, bir tərəfdən, insan hüquqları sahəsində qəbul edilmiş əksər beynəlxalq müqavilələrə qoşulmuş, digər tərəfdən isə, bu sahədə mövcud beynəlxalq standartlara uyğun olaraq özünün dövlətdaxili qanunvericiliyini yaratmışdır. Həmçinin insan hüquqlarının qorunmasını dövlətin ali məqsədi hesab edən 12 noyabr 1995-ci il tarixli AR Konstitusiyasında beynəlxalq hüquq normalarının primatlığını qəbul edən kifayət qədər müddəalar vardır. Belə ki, insan hüquq və əsas azadlıqların, AR-in vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi Konstitusion səviyyədə dövlətin ali məqsədi kimi elan olunmuş, bu hüquqların tətbiqinin dövlətin qoşulduğu beynəlxalq müqavilələrə uyğun olaraq yerinə yetirilməsi müddəası isə (m.12) beynəlxalq hüquq normalarının primatlığı barədə konstitusiya təsdiqidir. İnsan hüquqlarının təminatı baxımından 18 mart 2009-cu il tarixdə keçirilmiş ümumxalq səsverməsi (referendumu) ilə Konstitusiyaya əlavə və dəyişikliklərin edilməsi, ilk növbədə, insan hüquqlarının daha real təminatının əsası olan hüquqi dövlət-sosial dövlət münasibətlərini meydana gətirmiş, AR-in sosial dövlət quruculuğu istiqamətində fəaliyyətinin genişlənməsini, dövlətimizin özünün vətəndaşları qarşısında daha ciddi öhdəlik götürməsinin qanunvericilik əsaslarını müəyyən etmişdir. Daha sonra, 26 sentyabr 2016-cı il tarixdə ümumxalq səsverməsi (referendumu) yolu ilə AR Konstitusiyasına daxil edilən əlavə və dəyişiklər AR-də dövlət quruculuğunun yeni mərhələsinin başlandığını bildirmiş, insan hüquq və azadlıqlarının daha real və səmərəli təmininə şərait yaratmış, dövlət hakimiyyət orqanlarının fəaliyyətinin əlaqələndirilməsinə və daha da təkmilləşdirilməsinə, dövlətimizin beynəlxalq cəmiyyətə daha sürətli inteqrasiyasının konstitusion əsaslarının inkişafına gətirib çıxarmışdır.

İnsan hüquqları sahəsində beynəlxalq hüquq normalarının realizəsi istiqamətində AR Prezidentinin qəbul etdiyi aktlardan biri olan 28 dekabr 2006-cı il tarixli "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” insan hüquqlarının müdafiəsi sferasında dövlətlə vətəndaş



cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. AR Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması, cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə qəbul edilmişdir. AR Prezidentinin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası”nda qeyd edilir ki, Konsepsiya çərçivəsində insan kapitalının inkişafı sahəsində ölkədə əhalinin keyfiyyətli səhiyyə və təhsil xidmətləri ilə təmin edilməsi və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr və yoxsul vətəndaşlar üçün əlçatanlığı əsas strateji xətt olaraq ön plana çəkilir. Bununla bərabər, əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi məqsədi ilə görülən işlər davam etdiriləcək və genişləndiriləcəkdir.

Bütövlükdə, AR özünün daxili və xarici siyasətini məhz bu hüquqların daha da inkişaf etdirilməsinə yönəltməklə bir sıra dövlətdaxili tədbirlər həyata keçirir. Deyilənlər onun həm qanunvericilik bazasında, həm də iqtisadi inkişafını sürətləndirmək üçün atdığı bir sıra addımlarda (məs., xarici investisiyaların cəlb edilməsi ilə işsizliyin aradan qaldırılmasına kömək edilməsi, neftdən gələn gəlirin qeyri-neft sektorlarının yaradılmasına və inkişafına yönəldilməsi, turizmin və idman sahələrinin inkişaf etdirilməsi, müxtəlif məzmunlu tədbirlərin həyata keçirilməsi ilə dünyanın diqqətinin AR-ə cəlb edilməsi və s.) təzahür edir. Danılmazdır ki, AR öz qanunvericilik bazasını həm beynəlxalq (universal, regional) hüquq normalarına uyğunlaşdırmaqla, həm də ayrı-ayrı inkişaf etmiş dövlətlərin təcrübəsində sınaqdan keçmiş təminatlara istinad etməklə formalaşdırmışdır. Etiraf edilməlidir ki, təkcə qeyd edilənlər sosial hüquqların təminatı kimi çıxış edə bilməz, əgər buraya AR-in siyasi-iqtisadi fəaliyyətinin uğurlu nailiyyətləri əlavə olunmasa. Onu demək kifayətdir ki, dünyanı bürüyən iqtisadi böhran AR iqtisadiyyatına köklü təsir edə bilmədi və bu öz təsdiqini iqtisadi inkişaf göstəricilərində və dövlət siyasətinin sosial sahədə qəbul etdiyi normativ-hüquqi aktların davamlı qəbul edilməsində tapdı. AR İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) 2015-ci ilin Məruzəsində də bu barədə haqlı olaraq qeyd edilir: “Bütün dünyada hökm sürən böhranlı vəziyyətdə dövlət büdcəsində bəzi istiqamətlər üzrə baş verən azalmalar başa düşüləndir. Lakin təqdirəlayiq haldır ki, xərclərin azaldılması qayğıya ehtiyacı olan əhali qruplarının dəstəklənməsinə ünvanlanmış sosial proqram və layihələrin davamlılığına mənfi təsir etməmişdir”. Bu gün AR-də artıq qaçqın və məcburi köçkün anlayışı ancaq formal olaraq qalmış, onların əksəriyyəti layiqli mənzil şəraiti və digər sosial müdafiə tədbirləri ilə təmin olunmuşlar. Halbuki, bu gün əksər inkişaf etmiş

dövlətlər qaçqın məsələsində heç bir güzəştə getmir, hətta qətiyyətlə bu faktoru ictimai-siyasi sabitliyin pozulması, iqtisadiyyatın çökməsinə səbəb ola biləcək hal kimi qeyd etməkdən belə çəkinmirlər. Əlbəttə ki, bütün bunlar onu deməyə əsas verir ki, AR təcrübəsinin öyrənilməsi insan hüquqları sistemində sosial hüquqların daha etibarlı təminatına yeni töhfə vermiş olar.

Tədqiqatın aktuallığının digər bir tərəfi bu sahədə beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqə məsələlərinin təhlili ilə birbaşa bağlıdır. Belə ki, bu normaların qarşılıqlı şəkildə öyrənilməsi nəinki milli hüquq normalarının formalaşdırılması və təkmilləşdirilməsinə, həmçinin beynəlxalq hüquq normalarının da sistemləşdirilməsi və daha da inkişafına, o cümlədən yeni beynəlxalq hüquq normalarının qəbul edilməsinə gətirib çıxaracaqdır. Bundan başqa, müasir beynəlxalq münasibətlərdə beynəlxalq və dövlətdaxili hüququn yaxınlaşması tendensiyası beynəlxalq hüquqi normaların dövlətlərin milli hüququ ilə razılaşdırılmış şəkildə realizəsi zərurətini meydana çıxarmaqla mürəkkəb nəzəri və praktiki problemlər yaratmışdır. Belə problemlərin effektiv şəkildə həlli beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsinin gələcək inkişafında əsas meyardır.

**Tədqiqatın predmetini** sosial hüquqların beynəlxalq-hüquqi tənzimetmə sistemində yerinin müəyyən olunması, onların beynəlxalq-hüquqi tənzimlənməsinin universal müqavilə əsasları və təşkilati mexanizmləri, həmçinin Avropa, (o cümlədən Avropa Şurası (AŞ), Avropa İttifaqı (Aİ) və ATƏT), Müstəqil Dövlətlər Birliyi (MDB), Amerika Dövlətləri Təşkilatı (ADT), Asiya və Afrika regionunda sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi, sosial hüquqların təminatının milli mexanizmlər sistemində Konstitusiya nəzarəti, məhkəmə, inzibati-hüquqi formalar, sosial hüquqlarla bağlı AR qanunvericiliyi və ayrı-ayrı dövlətlərin qanunvericiliyinin müqayisəli təhlili (hormonizasiya problemi), ayrı-ayrı sosial hüquqların beynəlxalq və milli hüquqi tənzimlənməsinin xüsusiyyətləri və sosial hüquqların realizə vasitəsi kimi AR qanunvericiliyinin təkmilləşdirilməsi məsələləri təşkil edir.

**Tədqiqatın obyektini** sosial hüquqların beynəlxalq hüquqi tənzimlənməsinin nəzəri və praktik məsələlərinin araşdırılması təşkil edir.

**Tədqiqatın aktuallığı** da bilavasitə yuxarıda qeyd edilənlərlə əlaqədardır. Aktuallığın digər bir tərəfi ayrı-ayrı sosial hüquqların (əmək, sosial sığorta, mənzil və s.) ümumi və xüsusi aspektlərinin təhlil olunması, bu sahədə tənzimetmə fərqlərinin müəyyən edilməsidir. Qeyd edilən istiqamətdə geniş beynəlxalq normativ bazanın olması da problemin əhəmiyyətini artırır. Bütövlükdə isə, universal, regional və ikitərəfli əsasda sosial hüquqların tənzimlənməsi xüsusiyyətlərinin araşdırılması bu istiqamətdə mövcud problemlərin (həm nəzəri, həm də praktiki) müəyyən edilməsinə və onların həllinə gətirib çıxarır. Bütövlükdə, insan hüquqlarının ayrılmaz tərkib hissəsi olan sosial hüquqlar insan hüquqları qrupunda formalaşaraq



özündə onun əsas prinsiplərini ümumbaşlanğıc kimi qəbul etsə də, sosial hüquqlara məxsus spesifik xüsusiyyət onların ayrılıqda və daha geniş tədqiqatını zəruri edir.

**Tədqiqatın məqsədi** sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi ilə əlaqədar mühüm münasibətlərin geniş və kompleks şəkildə araşdırılmasıdır. Bu hüquqların tənzimlənməsi məsələlərinin elmi araşdırılmasına, eyni zamanda, bu sahədə universal, regional və ikitərəfli çərçivədə mexanizmlərin müqayisəli formada nəzərdən keçirilməsinə, dövlətdaxili qanunvericiliklərin və mövcud fikir müxtəlifliklərinin ətraflı təhlil edilməsinə, sosial hüquqlarla əlaqədar mühüm elmi bazanın yaradılmasına, son nəticədə isə onların bəyan edilməsi ilə real həyata keçirilməsi və müdafiə səmərəliliyinin artırılması üzrə mühüm təkliflərin və nəticələrin irəli sürülməsinə gətirib çıxarır.

**Qeyd edilən məqsədlərə nail olmaq üçün tədqiqatda aşağıdakı vəzifələr** müəyyən edilmişdir: beynəlxalq hüquqi tənzimetmə obyekti kimi sosial hüquqların formalaşma tarixi və onun dövrləşdirilməsi; sosial hüquqların anlayışı, mahiyyəti, həmçinin onun insan hüquqları sistemində yerinin müəyyən edilməsi; sosial hüquqların reallaşma və təminat forması kimi sosial dövlətin əsas xarakterik xüsusiyyətlərinin öyrənilməsi; sosial hüquqların təminatı sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərinin müəyyən olunması; sosial hüquqlar sahəsində beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqələrinin ümumnəzəri və praktik məsələlərinin beynəlxalq praktika, müxtəlif dövlətlərin müqavilə və qanunvericilik təcrübəsi, o cümlədən beynəlxalq hüquq ədəbiyyatlarında mövcud fikir müxtəlifliyi əsasında nəzərdən keçirilməsi; sosial hüquqların milli hüquqi təminat sistemlərinin qarşılıqlı əlaqədə nəzərdən keçirilməsi; sosial hüquqların beynəlxalq hüquqi tənzimlənməsi mənbələrinin nəzərdən keçirilməsi və bu hüquqların əsas və spesifik prinsiplərinin formalaşdırılması; sosial hüquqların universal beynəlxalq hüquqi tənzimlənməsinin beynəlxalq normativ-hüquqi aktlar bazasının formalaşdırılması və mövcud boşluqların aradan qaldırılması; universal səviyyədə sosial hüquqların təşkilati mexanizmlərinin nəzərdən keçirilməsi və səmərəli müdafiə mexanizminə nail olmaq üçün yeni prosedur təminatların müəyyən edilməsi; Avropa sistemi çərçivəsində sosial hüquqların beynəlxalq hüquqi müdafiəsinin əsas istiqamətlərinin öyrənilməsi; MDB çərçivəsində sosial hüquqların beynəlxalq hüquqi müdafiəsinin hüquqi bazası və həlli vacib məsələlərin müəyyən edilməsi; Amerika, Asiya və Afrika sistemində sosial hüquqların təminatının hazırkı vəziyyətinin öyrənilməsi; sosial hüquqların təminatında ikitərəfli əməkdaşlığın rolunun müəyyən edilməsi; sosial hüquqlarla bağlı AR qanunvericiliyinin və ayrı-ayrı dövlətlərin qanunvericiliyinin müqayisəli təhlilinin (hormonizasiya problemi) aparılması; ayrı-ayrı sosial hüquqların beynəlxalq və milli hüquqi tənzimlənməsinin

xüsusiyyətlərinin müəyyən edilməsi; AR qanunvericiliyində sosial hüquqların inkişaf perspektivlərinin araşdırılması və boşluqların aradan qaldırılması.

**Tədqiqatın elmi yeniliyi** onunla əlaqələndirilməlidir ki, XX əsrin ikinci yarısında aktiv surətdə siyasi lüğətə, hüquq elmi və praktikaya daxil olmuş sosial hüquqlar XX-XXI əsrlər arasında dünya ictimaiyyətinin və ayrı-ayrı dövlətlərin ən aktual problemləri sırasında dursa da, müasir hüquq elmində sosial hüquqlar hələ də lazımınca tədqiq olunmayıb, onlar hüquqi və sosial dövlətin, dövlət və şəxsiyyətin hüquqi statusunun təhlili zamanı nəzərdən keçirilir. Ümumi hüquq nəzəriyyəsi, konstitusiya və beynəlxalq hüquq üzrə əksər tədqiqatlarda insanın sosial hüquqları bu və ya digər formalarda baxılır və bunlar "sosial-iqtisadi hüquqlar", iqtisadi, sosial və mədəni hüquqlar", "sosial təminat hüququ", "sosial müdafiə hüququ" və ya "ikinci nəsil insan hüquqları" kimi çıxış edir. "İnsanın sosial hüquqları" anlayışının müəyyənləşməsi zamanı qeyri-müəyyənlik ondan ibarətdir ki, hətta bu gün də rəsmi sənədlərdə və elmi ədəbiyyatda əsas əlamətlərinə görə üst-üstə düşən və nisbətən təsdiqlənən insanın sosial hüquqları anlayışı yoxdur[18]. Hətta uzun müddət insanın sosial hüquqlarına ikinci dərəcəli rol ayrılırdı, bu hüquqların tənzimlənmə imkanı isə neqativ qiymətləndirilirdi. Elə hesab olunurdu ki, bu hüquqları dəqiq müəyyənləşdirmək və qiymətləndirmək mümkün deyil, onların təminatları isə öz təbiət və məzmununa görə hüquqi xarakter daşımır, onlar öz təmin və müdafiə olunması üzrə dövlət vəzifəsi yarada bilmir[19].

Elmi-yeniliyin digər bir tərəfi ondan ibarətdir ki, hüquq ədəbiyyatlarında sosial hüquqları tamamlayan onun geniş siyahısı nəzərdən keçirilməmiş, bu hüquqların ümumi və xüsusi prinsipləri formalaşdırılmamışdır. Həmçinin sosial hüquqların beynəlxalq hüquqi tənzimlənməsinin xüsusiyyətləri müqayisəli və qarşılıqlı şəkildə öyrənilməmişdir. Buraya universal, regional və ikitərəfli çərçivədə əməkdaşlıq münasibətlərinin təhlili də daxildir. Hazırkı tədqiqat isə qeyd edilən istiqamətlərdə geniş beynəlxalq müqavilə praktikasının, müxtəlif dövlətlərin qanunvericiliklərinin və hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyinin müqayisəli analizi əsasında aparılmışdır. Bundan başqa, sosial hüquqların inkişafına tarixi nöqteyi-nəzərdən yanaşılması və dövrləşdirilməsi, tədqiqatçılar qarşısında duran problemlərdən biri kimi qloballaşmanın sosial-iqtisadi hüquqların təminatı və müdafiəsi sahəsinə necə təsir göstərməsi məsələlərinin də öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bütün bu məsələlərlə əlaqədar mühüm elmi araşdırmaların aparılması, son nəticədə sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi ilə əlaqədar beynəlxalq normativ-hüquqi bazanın və dövlətdaxili qanunvericiliklərin daha da təkmilləşdirilməsinə bilavasitə kömək etmiş olacaqdır.

---

[18] Иваненко В.А., Иваненко В.С. Социальные права человека и социальные обязанности государства: международные и конституционные правовые аспекты. СПб, Изд-во «Юридический центр Пресс», 2003,с.30.

[19] Шварц Г. Экономические и социальные права. Российский бюллетень по правам человека. Вып.6. 1995, с.25.



**Dissertasiyada müdafiəyə aşağıdakı yeni elmi müddəalar irəli sürülür:**

**1.** Sosial hüquqlar insan hüquqlarının əsas prinsiplərini özünün ümumbaşlanğıc rəhbər müddəaları kimi qəbul etmişdir. Tarixən bərqərar olmuş, zənginləşmiş və təkmilləşərək insan mədəniyyətinin ayrılmaz hissəsini təşkil edən sosial hüquqların özünəməxsus ümumi və xüsusi prinsipləri də formalaşmışdır. Bundan başqa, universal, regional və ikitərəfli beynəlxalq münasibətlərdə kifayət qədər sosial hüquq normalarını özündə birləşdirən hüquqi baza yaradılmışdır. Sosial hüquqların müxtəlif beynəlxalq hüquq sahələrinin normalarını özündə birləşdirən kompleks sahələrarası tənzimləmə xüsusiyyəti və bu sahədə beynəlxalq hüquq normalarının dövlətlərin milli qanunvericiliklərinin təkmilləşdirilməsi vasitəsi kimi çıxış etməsi onun beynəlxalq hüquq institutu kimi nəzərdən keçirilməsini zəruri edir. Komplekslik isə onun beynəlxalq hüququn digər sahələri: beynəlxalq əmək hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq humanitar hüquq, beynəlxalq təşkilatlar hüququ və s. ilə sıx əlaqədə olması ilə izah edilməlidir. İnsanın sosial hüquqları cəmiyyətin həyatında yeni, olduqca mühüm prinsip və normalar kompleksi kimi formalaşmaqla dövlətdaxili hüququn əksər sahələrinə (konstitusiya, inzibati, bələdiyyə, vergi, maliyyə, mülki, torpaq, əmək, ailə, cinayət-prosessual hüquq, sosial-təminat hüququ və s.) nüfuz etmişdir.

**2.** Sosial hüquqların geniş siyahısının dövlətlərin konstitusiyasında elan olunması, insanların layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin əsas məqsədinə çevrilməsi, yəni təkcə hüquqların və məqsədin konstitusion səviyyədə elan edilməsi həmin hüquqların realizəsinin təminatı kimi çıxış edə bilməz. Sosial funksiyaların yerinə yetirilməsi dövlətin inzibati-hüquqi fəaliyyətinin gücləndirilməsini və səmərəli (ictimai) nəzarət mexanizminin yaradılmasını tələb edir, çünki onların həyata keçməsi vergi qoyuluşu, investisiyalar, antiinhisarçılıq qanunvericiliyi, dövlət krediti, sosial proqramların maliyyələşdirilməsi və s. vasitəsilə iqtisadiyyata təsir edir. Bunun üçün belə hüquqların təminat forması kimi konstitusion səviyyədə onun perspektiv inkişaf istiqamətləri və qanunvericiliyin yerinə yetirilməsinin təşkilati-hüquqi (nəzarət) mexanizmi yaradılmalıdır.

**3.** Sosial hüquqlar ümumi insan hüquqları qrupunda formalaşdığı üçün bu hüquqların yaranması və inkişafını da insan hüquq və azadlıq kompleksinin formalaşma tarixi ilə münasibətdə izləmək mümkündür. Sosial hüquqların təbii-anadangəlmə hüquqlarla sıx surətdə bağlılığını nəzərə alaraq onu 4 tarixi dövr ilə xarakterizə etmək olar: qədim dövr (18-ci əsrə qədərki dövr); orta əsrlər dövrü (1776 - 1919); yeni dövr (1919-1990); müasir dövr. I dövrdə sosial hüquqlar barədə ideyalar formalaşır, dövlətlərin qanunvericiliyində həmin hüquqların ilkin elementləri təşəkkül tapırdı. İqtisadi şəraitin yaxşılaşdırılması barədə iddialar uğrunda mübarizənin ilk mərhələsi sosial hüquqların

inkişaf mərhələsinin II dövrü ilə əlaqədardır. Bu dövrdə insanların sosial və iqtisadi hüquqlarının tanınması ideyası və dövlət tərəfindən bu hüquqların müdafiə edilməsi zərurəti əməklə kapital arasında yaranmışdır. Tarixdə ilk dəfə olaraq insan hüquqlarını tanıyan və möhkəmləndirən 1776-cı il Virciniya Hüquqlar Bəyannaməsində sosial hüquqların əsas məzmununu təşkil edən xoşbəxtliyə can atmaq hüququ elan olunmuşdur. III dövr Birləşmiş Millətlər Cəmiyyəti və digər beynəlxalq təşkilatların fəaliyyətləri ilə əlaqədardır. Belə ki, beynəlxalq hüquqda insanın sosial hüquqlarının universal institutunun formalaşması 1919-cu ildə yaranmış, fəaliyyəti sosial-əmək münasibətləri sferasında müəyyən standartların hazırlanmasına yönəlmiş BƏT-in normaya-radıcılığı ilə əlaqədardır. IV – müasir mərhələ isə ümumi qlobal tendensiyaların təsiri altında insanların sosial-iqtisadi hüquqları əhəmiyyətli dəyişikliyə məruz qalır və beynəlxalq hüquq institutu kimi formalaşır.

**4.** Sosial hüquqlara yeni anlayış xarakterikdir. Belə ki, sosial hüquqlar, insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi institutu kimi mühüm sahənin tərkib hissəsi olaraq, insanın layiqli yaşayışını və əhalinin sosial müdafiəsinin həyata keçirilməsi və praktiki təşkilini nəzərdə tutan, beynəlxalq hüquqla və dövlətlərin əsas qanunu ilə təminat verilən hüquqi-təşkilati məzmunlu norma və prinsiplərin məcmusudur. Tam məzmunda sosial hüquqlar siyasi hüquqların mühüm tərkib hissəsini təşkil edərək birinci nəsil insan hüquqlarının real təminatı kimi çıxış edir. Həmçinin sosial hüquqlar demokratiyanın inkişaf etdirilməsi, səmərəli və şəffaf dövlət idarəçiliyi üçün də mühüm əhəmiyyət kəsb edir. Sosial hüquqlar bir tərəfdən insanların lazımi həyat səviyyəsini təmin etməyə imkan verirsə, digər tərəfdən dövlətin üzərinə bu istiqamətdə müəyyən tədbirlərin həyata keçirilmə öhdəliyi qoyur. Sosial hüquqlar insan hüquqlarının ayrılmaz hissəsi kimi insan hüquqları sahəsində qəbul edilmiş mühüm beynəlxalq normalarla, həmçinin dövlətin konstitusiya və digər normativ hüquqi aktlarında dövlətlərin beynəlxalq sənədlərlə öhdəliklərini nəzərdə tutan beynəlxalq müqavilələrə uyğun müəyyən edilir.

**5.** Sosial hüquqların təminatı sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərindən bəhs edilərkən nəzərə almaq lazımdır ki, İnsan hüquqları haqqında Ümumi Bəyannamənin qəbul edilməsindən təqribən 70, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın qəbul edilməsindən 50, Avropa Sosial Xartiyasının (ASX) qəbul edilməsindən 55 il vaxt keçmiş və həmin beynəlxalq sənədlərdə nəzərdə tutulan müddəaların bəziləri öz məzmunu baxımından ictimai münasibətlərin tənzimlənməsində geri qalmışdır. Həmin müddəalardakı sosial hüquqlar barəsindəki “tədricən yerinə yetirilən” və “onların həyata keçirilməsi dövlətlərin iqtisadi vəziyyətindən daha çox asılı olması” kimi təsəvvürlər artıq köhnəlmişdir və dünyanın hazırkı inkişaf reallıqları ilə uzlaşmır. Çünki bu normalar əksər dövlətlərin



konstitusion müddəalarına çevrilmiş, onların reallaşması istiqamətində nəzəri və beynəlxalq təcrübə formalaşmış, hakimiyyətin idarə olunmasının ən səmərəli vasitəsi kimi “sosial dövlət” idarəetmə forması geniş vüsət almışdır. Hesab etmək lazımdır ki, artıq dövlətlər “tədricən həyata keçirilən hüquqlar” və “dövlətin iqtisadi vəziyyətindən asılı olan hüquqlar” anlayışlarından “bəhanələr” gətirə bilməzlər. Yəni müasir dövlət konsepsiyası onu deməyə əsas verir ki, dövlət sosial hüquqların həyata keçirilməsi öhdəliyindən sığorta oluna bilməz, həmin öhdəliklərin həyata keçirilməsi isə “yeni qayda” zərurəti yaradır ki, bu da uzunmüddətə hesablanmış sosial proqramlar və səmərəli hüquqi-təşkilati mexanizmlər vasitəsilə reallaşa bilər.

**6.** Xarici dövlətlərin sosial qanunvericiliyinin təhlili AR-in sosial qanunvericiliyinin sistemləşdirilməsi üçün kifayət qədər əhəmiyyətlidir. Bundan başqa, sosial hüquqlar sahəsində AR qanunvericiliyinin təhlili göstərir ki, sosial sahəyə dair normativ hüquqi aktlar özündə beynəlxalq standartları da əks etdirməklə inkişaf edir və sosial hüquqlar probleminin həlli və tənzimlənməsinə yönələn geniş normativ hüquqi sistem formalaşır. Lakin sosial hüquqlarla bağlı genişmiqyaslı və çoxsaylı qanunvericilik aktlarının qəbulu onların həyata keçirilməsinin daha səmərəli müdafiə formalarının yaradılmasını tələb edir. Bu mənada dövlətdaxili səviyyədə vahid kodifikasiya aktının, yəni "Sosial Məcəllə"nin işlənib hazırlanması və qəbulu sosial hüquqların səmərəli həyata keçirilməsinin əsas amillərindən biri hesab edilə bilər. Müvafiq “Məcəllə”də sosial hüquqların siyahısının, dövlət tərəfindən bu hüquqların təmin edilməsinin prinsiplərinin, dövlət siyasətinin mühüm aspektlərinin, beynəlxalq əməkdaşlığın üsul və istiqamətlərinin, sosial hüquqların təmin edilməsinə yardım göstərəcək sosial informasiya mərkəzlərinin yaradılmasının, məhkəmə müdafiəsi təminatlarının və bu sahədə digər münasibətləri tənzimləyən müddəaların təsbit olunması məqsədəmüvafiqdir.

**7.** Sosial hüquqların həyata keçməsi, hüquqi və fiziki şəxslər tərəfindən baş verə biləcək pozuntu hallarında bu hüquqların yenidən bərpa və müdafiəsi problemi çox vaxt əksər insanların hal-hazırda fəaliyyət göstərən qanunvericiliyi zəif bilməsindən, hüquq-mühafizə, məhkəmə və lazımi səlahiyyətli orqanlara müraciət etməməsi (edə bilməməsi) və ya belə müraciətlər zamanı yaradılmış süni maneələrdən irəli gəlir. İnsan hüquqlarının, o cümlədən sosial hüquqların real müdafiəsini həyata keçirmək məqsədi ilə müvafiq tədbirlər həyata keçirilməklə qanunvericilik bazası yaradılmalıdır. Bu məqsədlə aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə dövlət hesabına hüquqi yardım göstərilməli, məhkəməyə müraciət hüququ maneəsiz (məsələn, dövlət rüsumundan azad olmaq) təmin olunmalıdır.

**8.** Əksər sosial hüquqların Avropa Konvensiyası əsasında müdafiəsi nəzərdə tutulmamış və birbaşa məhkəmə praktikası ilə möhkəmlənməmişdir. Bu mənada,

ictimai münasibətlərə çevik reaksiya vermək və sosial hüquqların beynəlxalq məhkəmə müdafiəsini genişləndirmək məqsədilə Avropa Konvensiyasına sosial hüquqların geniş siyahısını özündə tamamlayan əlavə protokolun qəbul edilməsi zərurəti yaranır. Avropa Məhkəməsinin müfəssəl prosessual təminatları ilə bir sıra sosial hüquqların müdafiə mümkünlüyü, üzv dövlətlərin inkişaf etmiş sosial qanunvericilik imkanları və bu hüquqların bərpasında formalaşmış milli məhkəmə təcrübəsi dediklərimizin əsası kimi çıxış edir.

**9.** Sosial hüquqlarla bağlı beynəlxalq müqavilələrdə dövlətlərin aşağı səviyyədə iştirakı (məsələn, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda 92 dövlət; Əmək haqqının müdafiəsi haqqında Konvensiyada 88 dövlət; Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında Konvensiyada 77 dövlət; İşə qəbul zamanı minimal yaş haqqında Konvensiyada 37 dövlət iştirak edir və s.), ayrı-ayrı sosial hüquqların (məsələn, ruhi xəstələrin olduğu daha zəif əhali qrupunun) beynəlxalq ictimaiyyətin diqqətindən kənar qalması bu sahədə beynəlxalq əməkdaşlığın yeni istiqamətlərinin işlənib-hazırlanmasını, o cümlədən BMT-nin əsas orqanı olan ECOSOC nəzdində sosial hüquqların kompleks təşkilati-hüquqi tənzimlənməsini həyata keçirən yeni qurumun yaradılmasını zəruri edir.

**10.** AR Konstitusiyasının 43-cü maddəsi "Mənzil hüququ" adlansa da, bu norma öz məzmununda həmin hüquqların təminat imkanlarını nəzərdə tutmur. Çünki, hüquq müəyyənlilik nöqteyi-nəzərindən "Mənzil hüququ" dedikdə hərfi mənada vətəndaşların mənzilə olan tələbatının birmənalı ödənilməsi, mənzil əldə etmək imkanına malik olması kimi başa düşülür. İnsanın layiqli həyat və azad inkişafının təmin edilməsinin və ictimai məxluq kimi insanın formalaşmasının mühüm şərti və hər kəsin mövcudluğunun fundamental əsası mənzilə malik olmaq imkanı olduğu üçün hər bir dövlət mənzil hüququnun heç olmazsa minimum baza səviyyəsini təmin etməlidir. Konstitusiya müddəaları, fikrimizcə, milli və yerli hakimiyyət orqanlarının öhdəliklərini dəqiq göstərən adi qanunlar və normativ aktlarla möhkəmlənməlidir. Dövlətin sosial siyasətdə iradə nümayiş etdirməsi, yaxşı inkişaf etmiş kreditləşmə sistemi, xüsusi və bələdiyyə mənzil tikintisi üçün yaradılmış imkan və s. tədbirlər bu sahədə hüquqların realizəsinə xidmət etmiş olar. Həmçinin, mənzil hüququ insanların müvafiq yaşayış yeri əldə edə bilmədikləri zaman müraciət edə biləcəkləri ədalət məhkəməsinin predmetini təşkil etməlidir.

**11.** Beynəlxalq və milli qanunvericilikdə həmkarlar ittifaqının hüquqi bazası təkmilləşdirilməli, onların dövlətsizləşdirilməsi istiqamətində daha radikal addımlar atılmalıdır. Müəssisələrdə həmkarlar ittifaqları təşkilatlarının rolu konkret müəyyən olunmalı, onların müəssisədaxili müstəqillik təminatları möhkəmləndirilməlidir. Həmçinin işçilərlə həmkarlar ittifaqı təşkilatları və sonuncularla işəgötürənlər arasında münasibətlər şəffaflaşdırılmalıdır. Həmkarlar ittifaqı təşkilatlarının fəaliyyət göstərdiyi müəssisələrdə (işçilərin sayından asılı olmayaraq) mütəmadi olaraq işçilərin sosial hüquqları haqqında maarifləndirmə tədbirləri həyata keçirilməlidir. Həmkarlar ittifaqları idarəetmə orqanlarının rəhbər heyətinin dövri olaraq əvəzləşdirilməsi prinsipi əsasında formalaşması (məsələn, hər 3 ildən bir yeni rəhbər heyətlə əvəz edilməsi) və s. müstəqillik nöqteyi-nəzərindən fəaliyyətin səmərəlilik dərəcəsini artırmış olar.



**12.** Sosial dövlət anlayışı yeni məzmun kəsb etmişdir. Belə ki, dövlətin sosial siyasətinin mənbəyi uzaq keçmişdə olsa da, xüsusi siyasi-hüquqi reallıq kimi sosial dövlət haqqında o vaxt danışmaq olar ki, sosial siyasət dövlət fəaliyyətinin geniş dairəsinə nüfuz etməklə iqtisadi təminatlar əldə etmiş, əksər əhali dairəsini əhatə edən sosial hüquqlar qanunvericiliyi və onların realizəsini təmin edən şəffaf dövlət idarəetmə mexanizmi yaradılmışdır. Çünki sosial hüquqlar insanın ayrılmaz hüquqları sisteminin tərkib hissəsini təşkil edir, fundamental normalar sayılır, onlara riayət etmədən müasir cəmiyyətdə sosial tərəqqi və layiqli həyat şəraitini yaxşılaşdırmaq, azad insan şəxsiyyəti idealını reallaşdırmaq, azadlıq, sülh və ədalətlilik əsaslarını, bütün insanlara xas olan ləyaqət hisslərini təmin etmək mümkün deyildir. Qeyd edilənlərin təminatı kimi sosial dövlət çıxış edir.

**13.** Bir çox ölkələrdə vətəndaşların hüquqlarının müdafiə və mühafizəsinə yönəlmiş mürəkkəb mexanizmlərin yaradılmasına və fəaliyyət göstərməsinə baxmayaraq, vətəndaşların hüquqları yenə də tez-tez pozulur, onların müdafiə vasitələri isə, təcrübənin göstərdiyi kimi, heç də həmişə səmərəli təsir göstərmir. Bununla bağlı ictimaiyyət qarşısında həm fəaliyyət göstərən institutların təkmilləşməsi problemi, həm də şəxsiyyətin hüquqlarını qoruyan və ona zəmanət verən yeni institutların yaradılması məsələsi dayanır. Söhbət, dövlət maraqlarının müdafiə edilməsinə deyil, yalnız insan hüquqlarının müdafiəsinə əsaslanaraq məmurların fəaliyyətinə nəzarət edən yeni demokratik institutun inkişafından gedir. Azərbaycan Respublikasının hüquqi islahatlar praktikası dediklərimizə əyani sübutdur. Belə ki, 26 sentyabr 2016-cı il tarixdə ümumxalq səsverməsi yolu ilə Azərbaycan Respublikası Konstitusiyasına daxil edilən hər kəsə münasibətdə "hüquq və azadlıqların inzibati və məhkəmə təminatı" və əsasən də qanunvericiliyə məzmunca müasir demokratik ruh gətirən "özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ" adlı konstitusion normalar dövlət orqanlarının vətəndaşlar qarşısında məsuliyyətini artırmaqla sosial dövlətə rəvac verən inkişaf göstəricisi kimi vətəndaş-dövlət münasibətlərində kompromis kimi çıxış edir. Bundan başqa, dövlət qulluqçularının məsuliyyətinin artırılması barədə geniş tədbirlərin görülməsi də sosial-hüquqi münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir.

Həmçinin digər tədbirlər də həyata keçirilməlidir: dövlət sosial siyasət yürütməklə xüsusilə çətin maddi vəziyyətdə olan, kənardan yardım olmadan bu

vəziyyəti yaxşılaşdıra bilməyən əhali qruplarının qənaətbəxş və ya heç olmazsa, ehtiyacsız yaşayışını inzibati-təşkilati tədbirlər vasitəsilə təmin etməyə çalışmalıdır; sosial sahələrdə tamamilə ixtisaslı kadrların yerləşdirilməsini təmin etməlidir; sosial sahələr üzrə mütəxəssis kadrların hazırlığı məqsədi ilə elmi-tədris bazası yaradılmalıdır və s..

**14.** Sosial hüquqların konstitusion-hüquqi müdafiəsi məsələləri insan hüquq və azadlıqlarının müdafiəsinin daha aktual və mühüm problemlərinə aid olmaqla bərabər, konstitusionalizm nəzəriyyəsi və praktikası baxımından daha az işlənib hazırlanmış məsələlər sırasında qalır. Müasir tədqiqatların göstərdiyi kimi, Konstitusiya Məhkəməsinin qərarları kifayət qədər etibarlıdır və hətta ölkədə sosial siyasətin formalaşmasına təsir göstərir. Həmçinin, Konstitusiya Məhkəməsi AR məhkəmə sisteminə daxil olan digər məhkəmələr kimi, insan hüquq və azadlıqlarının müdafiəsini həyata keçirən orqandır. Konstitusiya Məhkəməsi tərəfindən insan hüquq və azadlıqların müdafiəsi təkcə ona ünvanlanan şikayətlərə baxılması ilə deyil, demək olar ki, bütün səlahiyyətlərinin yerinə yetirilməsi zamanı təmin olunur. AR Konstitusiya Məhkəməsində bəzi sosial hüquqların müdafiəsinin toplanmış təcrübəsi dediklərimizi bir daha sübut edir. Bu baxımdan Konstitusiya Məhkəməsi, sosial hüquqlarla əlaqədar müvafiq problemlərin qiymətləndirilməsi və təhlil edilməsini, onların məzmununun nəzəri-hüquqi əsaslanmasını təmin etməklə bərabər, tətbiqi problemlərini də həll edərək ədalət mühakiməsi institutunun məqsədəmüvafiqlik baxımından realizəsinin təminatı kimi çıxış edir.

**15.** Aparılmış elmi tədqiqatlar və mövcud normativ-hüquqi sənədlər əsasında sosial hüquqlar sahəsində münasibətləri tənzimləyən prinsiplər sisteminin formalaşması qənaətinə gəlmək mümkündür. Belə ki, sosial hüquqlar insan hüquqlarının II “nəsil” anlayışını özündə ehtiva etdiyindən və insan hüquqları sistemində formalaşdığı üçün onun prinsiplərini özünün ümumbaşlanğıc müddəaları kimi qəbul etmişdir ki, bu baxımdan da insan hüquqlarına xas olan ümumi prinsiplər sosial hüquqlar sferasında əsas prinsiplər keyfiyyəti əldə edir. İnsan hüquqları, o cümlədən sosial hüquqlar sahəsində qəbul edilmiş beynəlxalq hüquqi sənədlərdə və dövlətlərin konstitusiyalarında təsbit edilmiş sosial hüquqlar üçün umumi prinsiplər də xarakterikdir ki, bu prinsiplər də əsas prinsiplərin məzmunundan çıxış edir və bütün sosial hüquqlar üçün səciyyəvi olan ümumbaşlanğıc normalar kimi tanınır. Ayrı-ayrı sahəvi sosial hüquqlara xas olan rəhbər müddəalar isə xüsusi prinsiplər kimi fərqləndirilir və ümumi prinsiplərin təsiri altında tənzimlənmə xüsusiyyəti əldə edir. Deməli, sosial hüquqlar sahəsində prinsiplər sistemini əsas, ümumi və xüsusi prinsiplərin məcmusu kimi səciyyələndirmək olar. Sosial hüquqların qeyd edilən prinsiplər sistemi vasitəsi ilə tənzimləmə xüsusiyyəti qazanmasını, dövlətlərin sosial hüquqlar sahəsində beynəlxalq sənədlərə qoşulub-qoşulmamasından asılı olmayaraq, həm də bu



hüquqların artıq beynəlxalq hüquqi adətdən irəli gələrək dövlətlərin qanunvericilik təcrübəsinə sirayət etməsi faktı ilə də izah etmək olar.

**16.** Sosial hüquqların təhlili göstərir ki, müasir beynəlxalq hüquqda bu hüquqların tənzimlənməsi və inkişafına yönələn geniş beynəlxalq normativ sistem formalaşmışdır. Həmçinin bu hüquqların məzmunu və hüquqi təminat mexanizmi problemə beynəlxalq hüquqla dövlətdaxili hüququn qarşılıqlı əlaqəsində və vəhdətində baxılmasını zəruri etsə də, onun beynəlxalq hüquqi əhəmiyyəti danılmazdır, çünki sosial hüquqların inkişafı məhz beynəlxalq hüququn normayaradıcılıq fəaliyyətindən irəli gəlmişdir. Sosial hüquqların beynəlxalq tənzimlənməsi sferasında səmərəliliyə nail olmaq üçün universal və regional səviyyədə qəbul edilmiş normaları, eyni zamanda, bu sahədə tövsiyəedici xarakter kəsb edən mütərəqqi xarakterli sənədləri nəzərə almaqla, ayrı-ayrı sosial hüquqları əhatə edən vahid universal beynəlxalq müqavilə qəbul edilməlidir ki, bu da həmin normaların dövlətdaxili qanunvericiliyə implementasiyasında vahid yanaşmadan çıxış etməyə imkan verəcəkdir.

**Mövzunun işlənmə dərəcəsi.** Dissertasiya işində bilavasitə sosial hüquqlar sahəsində, o cümlədən bu sferada beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı fəaliyyət xüsusiyyətlərini təhlil edən xarici alim-tədqiqatçıların əsərlərindən geniş istifadə edilmişdir. Belə tədqiqatçılardan Anıl Çeçen., Ametistov E.M., Aranovskiy K.V., Baqlay M.V., Baskin Y.Y., Baxin S.V., Valeyev R.M., Volqin E.A., Qluşenko P.P., Qordon L.A., Qriçenko N.N., D. Tezcan., Danilenko Q.M., Entin M.L., Zaxarov M.L., Zimnenko B.L., İ. Doğan., İvanenko V.A., İvanenko V.S., İqnatenko Q.V., H. Can., H. Pazarcı., Yudin V.P., Kartaşkin V.A., Kozlov A.E., Lobov M., Lazareva V.V., Lukaşeva Y.A., Lukaşuk İ.İ., M.R. Erdem., Mişin A.A., O.Sancakdar., Putilo N.V., R. Korkusuz., R.M.Önok., Rebekka M.M., Saidov A.X., Tiunov O.İ., Timçemko L.D., Tunkin Q.İ., Tuçkova E.Q., Xroponyuk V.N., Çiqaryev V.M., Çirkin V.Y., Şvarts Q., Şkatulla V.İ., Şarkov F.İ., Şumilov V.M., Shaw M.N. və b. aid etmək olar.

Bundan başqa, dissertasiya işində əsərlərində bilavasitə ayrı-ayrı sosial hüquqların bu və ya digər məsələləri üzrə tədqiqatlar aparmış xarici alimlərin əsərlərindən istifadə edilmişdir. Məsələn, Azarov A.Y., Baxin S.V., Butkeviç V.Q., Byurqental T., Denisov V.N., Kiselyov İ.Y., Kolosov Y.M., Kuznetsov V.I., Kurdyukov Q.I., Malkolm Ş., Minqazov L.X., Mironov N.V., Müllerson R.A., Movçan A.P., Robert Şarvin, Starke I.Q., Troşkin Y.V., Usenko E.T., Uşakov N.A., Çerniçenko S.V., Şumilov V.İ. və b.

Dissertasiya işində bu və ona yaxın sahələrdə tədqiqatlar aparmış azərbaycan hüquqşünas - alimlərinin əsərlərindən də istifadə edilmişdir. Məsələn, Ələsgərov M.N., Əsgərov Ə.İ., Əsgərov Z.Ə., Əliyev M.N., Əliyev Ə.İ., Əfəndiyev O.F., Hüseynov L.H., Hüseynov T.İ., Hüseynova H.K., Qasımov A.M.,

Qaracayev C.Y., Quliyev İ.O., Quliyev A.İ., Məlikova M.F., Məmmədov R.F., Məmmədov R.M, Məmmədov Ə. Mövsümov C.H., Mustafayeva A.İ., İbayev V.Ə., Rəhimov İ.M., Rəcəbli H., Sadıqov Ə.İ.və b.

Dissertasiya işinin yazılmasında geniş beynəlxalq hüquqi (normativ) materiallardan, beynəlxalq praktikadan, AR və müxtəlif dövlətlərin qanunvericilik və müqavilə praktikasından müqayisəli şəkildə istifadə edilmişdir.

**Dissertasiya tədqiqat işinin metodoloji əsasını** dialektikanın prinsip və kateqoriyaları təşkil edir. Ümumi elmi metodlarla yanaşı, digər metodlar da - tarixi, müqayisəli, məntiqi, sistemli-struktur və s. dissertasiyada diqqətlə təhlil edilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyada irəli sürülən mühüm müddəa və təkliflər praktiki baxımdan da xüsusi əhəmiyyətə malikdir. Belə ki, dissertasiyanın əksər (başlıca) istiqamətləri üzrə irəli sürülmüş nəticə və təkliflər insan hüquqları, o cümlədən sosial hüquqlar sahəsində beynəlxalq və dövlətdaxili normativ hüquqi aktların işlənib hazırlanması və qəbul edilmiş normaların təkmilləşdirilməsi zamanı hüquqyaradıcılıq fəaliyyətində; sosial hüquqlar sahəsində konkret istiqamətlərin işlənilməsi üçün gələcək elmi tədqiqatlarda; AR ali məktəblərində beynəlxalq ümumi hüquq, beynəlxalq xüsusi hüquq, insan hüquqları, sosial müdafiə (təminat) sahəsində müvafiq dərslik, dərs vəsaitləri, o cümlədən tədris-metodik proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Dissertasiya işinin mühüm aspektləri ilə əlaqədar bir sıra məsələlər AR-də və xarici ölkələrdə (RF, Ukrayna, Moldova, Nigeriya) nəşr olunan jurnallarda ("AR-də dövlət və hüquq quruculuğunun aktual problemləri", "Azərbaycan hüquq jurnalı", "Beynəlxalq hüquq və inteqrasiya problemləri", "Qanun", "AMEA-nın məruzələri", "Nəqliyyat hüququ", "Вопросы гуманитарных наук" (Moskva), "Наука I правоохорона" (Ukrayna), "Науковı читання" (Ukrayna), "Law and politology" international scientific journal (Moldova), Journal of Scientific Research and Development (Nigeriya)) və bir sıra beynəlxalq elmi-praktik konfransların materiallarında çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, özündə 20 paraqrafı birləşdirən 5 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin Giriş hissəsində** mövzunun aktuallığı, tədqiqatın predmeti, məqsədi və vəzifələri, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, müdafiəyə çıxarılan yeni elmi müddəalar və nəticələrin aprobasiyası göstərilir.

**Dissertasiya işinin I fəsli "Sosial hüquqların beynəlxalq-hüquqi tənzimetmə sistemində yeri" adlanır və 5 paraqrafdan ibarətdir.**



**I fəslin 1-ci paraqrafında** hüquq ədəbiyyatında ilk dəfə olaraq sosial hüquqlar inkişaf tarixi nöqteyi-nəzərindən dövrləşdirilmişdir. Belə ki, onların təbii-anadangəlmə hüquqlarla sıx surətdə bağlılığını nəzərdən keçirdikdə müvafiq olaraq bu hüquqları 4 dövrə ayırmaq olar: qədim dövr (18-ci əsrə qədərki dövr); orta əsrlər dövrü (18-ci əsr - 1919); yeni dövr (1919-1990) və müasir dövr.

Birinci dövr insan hüquqları ideyalarının yarandığı dövrdür. Bu dövrdə ilk əvvəl sosial hüquqlar barədə ideyalar formalaşmış, dövlətlərin qanunvericiliyində onların ilkin elementləri təşəkkül tapmışdır. Antik dövr mütəfəkkirlərindən Hesiodun "Teoqoniya", "Zəhmətlər və günlər", Platonun "Dövlət", "Qanunlar haqqında", Aristotelin "Siyasət", Siseronun "Dövlət haqqında", N.Tusinin "Əxlaqi-nasir", "Əxlaqi möhtəşəm" və yüzlərlə belə əsərlər (o cümlədən Avesta) sosial hüquqlar barədə ideyaların səsləndirildiyi zəngin fikir xəzinəsidir. İnsan hüquqları, o cümlədən insan hüquqları sisteminin tərkib hissəsi kimi çıxış edən sosial hüquqlar probleminin yaranması özlüyündə cəmiyyətin, dövlətin və insan fəaliyyətinin inkişafı ilə əlaqədar[20] olduğundan sosial hüquqların antik dövrünün inkişafını təkcə ictimai-siyasi dünyagörüşün hüdudları ilə məhdudlaşdırmaq olmaz, bu hüquqlar eyni zamanda dövlətin müvafiq qanunvericilik sistemi ilə də əhatə olunmuşdur. Bu mənada Spartada Lukurq qanunları (e.ə. VII əsr), Afinada Solon islahatları (e.ə. 640-560), Romada Serviy Tulliyin islahatları (e.ə. 578-534), qədim Azərbaycanda "Aquen Məclisinin Qərarı", "Simeonun Qanunları", "Matikan Xəzər Dastanı" (Min məhkəmə qərarları toplusu), "Tanserin Məktubu", "Kitabi-Dədə Qorqud" və s. qanunlar mühüm əhəmiyyət kəsb edir. Dövlət hakimiyyətinin özbaşınalığını məhdudlaşdıran "insanı müdafiə edən" normalar İngiltərənin bir sıra qanunvericilik aktlarında da əks olunmuşdur. Bu dövrdə insanlar sosial hüquqları artıq müəyyən zorakı təsir vasitələri ilə qazanmağa cəhd göstərmişlər.

XIX əsrin II yarısından sosial hüquqlar, o cümlədən iqtisadi şəraitinin yaxşılaşdırması barədə iddialar uğrunda mübarizənin ilk mərhələsi başlamışdır ki, bu da sosial hüquqların inkişaf mərhələsinin II dövrü ilə əlaqədardır. Bu dövrdə insanların sosial və iqtisadi hüquqlarının tanınması ideyası və dövlət tərəfindən bu hüquqların müdafiə edilməsi zərurəti XIX əsrdə əməklə kapital arasındakı ziddiyyətlərin cərəyan etdiyi mərhələdə yaranmışdır. Bu hüquqlar fərdin yaşayışının sosial-iqtisadi şəraitinin qorunması və normativ möhkəmləndirilməsinə toxunur, insanların qorxu və ehtiyacdan azad olması şəraitinin yaradılması məqsədilə insanın əmək və məişəti, məşğuliyyəti, güzəranı və sosial müdafiə sferasındakı vəziyyətini müəyyənləşdirir.

III dövr BMT və digər beynəlxalq təşkilatların fəaliyyətləri ilə əlaqədardır ki, bu da ilk öncə 1919-cu ildə yaranmış, əsas səyləri sosial-əmək münasibətləri

[20] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, s.88.

sferasında müəyyən standartların hazırlanmasına yönəlmiş BƏT-in norma-yaradıcı fəaliyyətindən irəli gəlir. Buna nail olmaq üçün BƏT işlə təmin etmə və işə qəbul zamanı ən aşağı yaş, zəhmətkeşlərin müxtəlif kateqoriyasının əmək şəraiti, iş gününün müddəti, əmək haqqı, əmək şəraiti və mühafizəsi, istehsalatda baş verən bədbəxt hadisələr zamanı kompensasiya, sosial sığorta, ödənişli məzuniyyətlər və s. kimi məsələlər üzrə beynəlxalq konvensiya və tövsiyələr hazırlayır. II Dünya Müharibəsindən sonrakı dövrdə həm BƏT çərçivəsində, həm də xüsusən yeni universal beynəlxalq təşkilat – BMT çərçivəsində (himayəsi altında) insanın sosial hüquqlarının bütöv kompleksinin razılaşması, tanınması və təsbit edilməsi üzrə xeyli iş görülmüşdür. İnsanın sosial hüquqları bir çox regional beynəlxalq müqavilələrdə təsbit edilmişdir. Bu hüquqları təşkil edən normalar təkcə xüsusi beynəlxalq hüquqi müdafiə aktlarında deyil, həm də bir sıra xüsusi sahəvi xarakter daşıyan beynəlxalq aktlarda vardır. Bu gün sosial hüquqlar barəsində normalar beynəlxalq hüququn bir çox sahə və institutlarına daxil olur. Bunların arasında ilk növbədə beynəlxalq humanitar hüquq, beynəlxalq əmək hüququ, beynəlxalq ekologiya hüququ və s. göstərmək lazımdır. Bu dövrdə həmçinin sosial hüquqlar beynəlxalq təşkilatlar tərəfindən səslənərək müvafiq dövlətlərin qanunvericiliyinə tövsiyə olunur.

Müasir dövr mərhələsində isə ümumi qlobal tendensiyaların təsiri altında insanların sosial hüquqları əhəmiyyətli dərəcədə dəyişikliyə məruz qalır və bu hüquqlar beynəlxalq hüquq institutu kimi formalaşır. Müasir şəraitdə şəxsiyyətin hüquqi statusunun əsasları beynəlxalq hüquqla, onun ümumqəbuledilmiş prinsip və normaları ilə müəyyənləşdiyi üçün əksər dövlətlərin konstitusiyaları ÜİHB-yə, insan hüquqları sahəsində qəbul edilmiş Beynəlxalq Paktlara istinad edir, dövlətlər tərəfindən imzalanmış beynəlxalq aktlar dövlətdaxili hüquq kimi tətbiq edilir. Bir sıra konstitusiyaların beynəlxalq hüququn dövlətdaxili hüquq üzərində primatlığını qəbul etməsi dediklərimizi daha da əsaslandırır. Bu dövrdə, hüquq normalarının hormonizasiyası gedir, beynəlxaq hüququn milli hüquq sisteminə implementasiyası həyata keçirilir, cəmiyyətin həyatında yeni, olduqca mühüm prinsip və normalar kompleksi kimi formalaşır, mühüm hüquqi xüsusiyyətə malik olan bu hüquqların norma və prinsipləri dövlətdaxili hüququn demək olar ki, bütün sahələrinə daha sıx nüfuz edir. Sosial hüquqlar bu dövrdə müxtəlif hüquq sahələrinin normalarını özündə birləşdirən kompleks sahələrarası institut kimi formalaşmış, hazırda isə insan hüquqlarının, fərdlərin statusunun, onların həyata keçmə təminat və üsullarının, hüquqların müdafiəsini təmin etmək üzrə dövlətin fəaliyyəti prosesində əmələ gəlmiş münasibətləri tənzimləyən hüquqi normalar sistemi kimi fəaliyyət göstərir, beynəlxalq hüquqi müdafiə ilə yanaşı dövlətdaxili hüquqi mexanizmlərlə də lazımınca müdafiə olunur.

**I fəslin 2-ci paraqrafında** sosial hüquqların anlayışı ilə bağlı mülahizələr geniş hüquq ədəbiyyatı əsasında təhlil olunaraq nəticədə bu hüquqlara geniş



anlayış verilir, həmin hüquqların səciyyəvi xüsusiyyətləri nəzərdən keçirilir. Haqlı olaraq qeyd edilir ki, sosial hüquqlar XX-XXI əsrlər arasında dünya ictimaiyyətinin və ayrı-ayrı dövlətlərin ən aktual problemləri sırasında dursa da müasir hüquq elmində sosial hüquqlar hələ də lazımınca tədqiq olunmayıb və onlar əksər hallarda hüquqi və sosial dövlətin, dövlət və şəxsiyyətin hüquqi statusunun təhlili zamanı nəzərdən keçirilir. Ümumi hüquq nəzəriyyəsi, konstitusiya və beynəlxalq hüquq üzrə əksər tədqiqatlarda insanın sosial hüquqları bu və ya digər formalarda baxılır və bunlar "sosial-iqtisadi hüquqlar", "iqtisadi, sosial və mədəni hüquqlar", "sosial təminat hüququ" və ya "ikinci nəsil insan hüquqları" kimi çıxış edir. "İnsanın sosial hüquqları" anlayışının müəyyənləşməsi zamanı qəribəlik ondan ibarətdir ki, hətta bu gün də onun rəsmi sənədlərdə və elmi ədəbiyyatda əsas əlamətlərinə görə üst-üstə düşən və nisbətən təsdiqlənən anlayışı yoxdur.

Paraqrafda elmi ədəbiyyatlarda olan müxtəlif yanaşma, baxış və mülahizələrin, rəsmi sənədlərdəki norma və müddəaların analizi əsasında sosial hüquqların anlayışı verilmişdir ki, bu da yeni məzmun və elmi yenilik kəsb etdiyindən dissertasiyada elmi müddəa kimi irəli sürülmüşdür.

Bundan başqa, paraqrafda sosial hüquqların insan hüquqları sistemində yeri müəyyən olunmuşdur. Bəzən sosial hüquqlar ikinci dərəcəli və ya az əhəmiyyətli hüquqlar kimi nəzərdən keçirilir. Lakin mövcud hüquq ədəbiyyatı və beynəlxalq sənədlərin təhlili birmənalı olaraq onu deməyə əsas verir ki, bu hüquqlar insan hüquqlarının digər "nəsl"-lərinə nisbətən aşağı dərəcəli hüquqlar hesab edilə bilməz. Əksinə, sosioloji tədqiqatların nəticələri birmənalı şəkildə sübut edir ki, kütləvi şüurda sosial hüquqlar birinci nəslin hüquqlarına nisbətən daha çox prioritetə malikdir. Belə ki, sosial-iqtisadi hüquq və azadlıqlar insanın iqtisadi və onunla sıx bağlı olan mənəvi tələbat və maraqlarını təmin edən maddi sərvətlərin istehsal və bölgü sferasında şəxsiyyətin imkanları[21], insan və vətəndaşın əsas hüquq və azadlıqlarının xüsusi qrupunu təşkil etməklə insan həyatının mülkiyyət, əmək münasibətləri, istirahət, təhsil və sağlamlıq kimi sferalarına aid olaraq şəxsiyyətin fiziki, maddi, mənəvi və digər sosial əhəmiyyətli tələbatlarının ödəyicisi[22], insanların layiqli, yüksək həyat səviyyəsini və sosial müdafiəsinin təminatçısı[23], əməyin – istehsal gücü ilə yaranmış yaşama vasitələri sferasında insanların münasibətlərinin tənzimləyicisi[24], insanların iqtisadi, sosial və mədəni sferada azadlıqlarına təminat verməklə ona özünün həyati maraqlarını təmin

[21]Теория государства и права /Под ред. М.Н.Марченко. М., 1996, с. 236.
[22] Теория государства и права /Под ред. В.К.Бабаева. М., 1999, с. 175.
[23] Права человека. Учебник для вузов. Отв. ред. Е.А. Лукашева, М., Издательство НОРМА (Издательская группа НОРМА–ИНФРА·М), 2003, с.164.
[24] Чигарев В.М.. Генезис и реализация концепции социальных прав человека. (Политологический аспект). ДА МИД РФ. М., 2002, с.49-53.

etmək imkanları[25], insana cəmiyyətdə yaşamaq imkanı verən hüquqlardır. K.B.Aranovski qeyd etmişdir ki, sosial, iqtisadi və mədəni hüquqlardan istifadə etməklə insan ictimai sərvətdən faydalanır və sivilizasiyanın yaratdığı xoşbəxtliyə qovuşur[26] və s.

Beləliklə, sosial hüquqların kompleks hüquq institutu kimi beynəlxalq hüquq sistemində yerini müəyyənləşdirərkən belə nəticələrə gəlmək olar: 1. Sosial hüquqlar insan hüquqlarının ayrılmaz hissəsi kimi insan hüquqları sahəsində qəbul edilmiş mühüm beynəlxalq normalarla müəyyən edilir**.** 2. Sosial hüquqlarla əlaqədar məsələlər dövlətin konstitusiya və digər normativ hüquqi aktlarında dövlətlərin beynəlxalq sənədlərlə öhdəliklərini nəzərdə tutan beynəlxalq müqavilələrə uyğun müəyyən edilir. Bu isə heç də dövlətdaxili hüququn rolunu azaltmır. Belə ki, beynəlxalq hüquq normalarının səmərəlilik dərəcəsi həlledici dərəcədə onun realizəsindən asılıdır. 3. Sosial hüquqlar insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi sistemində kompleks hüquq institutu kimi müəyyən edilməlidir. Komplekslik isə onun beynəlxalq hüququn digər sahələri (beynəlxalq əmək hüququ, beynəlxalq iqtisadi hüquq, beynəlxalq humanitar hüquq, beynəlxalq təşkilatlar hüququ və s.) ilə sıx əlaqədə olması ilə izah edilməlidir. 4. Sosial hüquqların həyata keçirilməsi dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biridir. Belə ki, AR Konstitusiyasının 12-ci maddəsinin 1-ci hissəsində qeyd edilir ki, insan hüquq və azadlıqlarının qorunması dövlətin ali məqsədidir. 5. Sosial hüquqlar, o cümlədən bütövlükdə insan hüquqları sahəsində üstünlük beynəlxalq müqavilələrə verilir. Belə ki, AR Konstitusiyasının 12-ci maddəsinin 2-ci hissəsində deyilir ki, insan hüquq və azadlıqları AR-in iştirakçısı olduğu beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

**I fəslin 3-cü paraqrafı** "Sosial hüquqların reallaşma problemi: sosial hüquqların təminatı sosial dövlətin funksiyası kimi" adlanır və burada sosial hüquqların reallaşması prosesində yaranan problemlər, dövlətin sosial sferada apardığı işlərin vəziyyəti, sosial hüquqların reallaşma mexanizmində ən müxtəlif faktorlar, vətəndaşların konstitusion hüquq və azadlıqlarının həyata keçməsi, bərpası və müdafiəsi mexanizminin təkmilləşmə istiqamətləri, bu hüquqların həyata keçməsində təşkilati-hüquqi mexanizmin rolu, sosial dövlətin yaranması tarixi və bunu zəruri edən amillər, sosial dövlət barədə irəli sürülən konsepsiyalar, sosial dövlətin müasir anlayışı, AR dövlətinin sosial yönlü siyasətinin konstitusion hüquqi əsasları və s. məsələlər nəzərdən keçirilir.

Haqlı olaraq qeyd edilir ki, konstitusiya tərəfindən nəzərdə tutulmuş, insanın hüquq və azadlıqlarını təmin etməyə yönəlmiş dövlət sisteminin bəzən öz vəzifələrinin öhdəsindən lazımınca gələ bilməməsi, bir sıra ölkələrin "beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarına müvafiq olaraq insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması"-nı öz ali məqsədlərindən biri kimi qəbul etsələr də sosial sferadakı öz beynəlxalq öhdəliklərini tam həcmdə yerinə yetirə bilməməsi, sosial inkişafın bir çox proqramlarının reallaşdırılması yolunda lokal və qlobal xarakterli ciddi maneələrin olması, sərvətlərin bölüşdürülməsində böyük bərabərsizlik, müxtəlif regionlarda sosial-siyasi qeyri-sabitlik, silahlı münaqişələr və s. hallar insanın layiqli yaşayışını təmin edən sosial hüquqların daha möhkəm təminatı kimi sosial dövlət quruluşunu zəruri edir. Başqa sözlə desək, çoxsahəli sosial hüquqları özündə ehtiva edən sosial siyasətin həyata keçirilməsi genişmiqyaslı təşkilati-hüquqi mexanizm olmadan mümkün deyil ki, bu da sosial hüquqları təşkil edən norma və prinsiplərin xüsusiləşmiş kompleksi kimi "sosial dövlət"-in yaranmasını şərtləndirir. Bundan başqa, hüquqi dövlətlə müqayisədə sosial dövlətin özünəməxsus cəhətləri də yuxarıdakı nəticəni bir daha təsdiq edir: "hüquqi dövlət" konsepsiya və praktikasının əmələ gəlməsi insan hüquqlarının "birinci nəsli"nin təzahürü və tanınması ilə bağlıdırsa, "sosial dövlət" nəzəriyyəsi və praktikası isə birbaşa "ikinci nəsil" hüquqların yaranması və tanınması ilə bağlıdır; əgər "hüquqi dövlət" nəzəriyyə və təcrübəsinin əsasında hüquq və qanun, demokratiya hökmranlığı, fərdi azadlıq, mülki və siyasi hüquqların qələbəsi durursa, "sosial dövlətçilik" konsepsiyasının ideologiya və təcrübəsinin əsasını insanpərvərlik və sosial ədalət ideyaları, cəmiyyətin bütün sosial qruplarının ümumi birliyi, bərabərsizliyin tanınmazlığı və sosial bərabərlik qələbəsi, sosial-iqtisadi hüquqların tanınması və müdafiəsinin dövlət tərəfindən zəmanəti təşkil edir[27]; hüquqi dövlət sosial olmalıdır, sosial dövlət isə hüquqi olmaya bilməz; sosial dövlət yalnız demokratiya, vətəndaş cəmiyyəti şəraitində mümkündür və hüquqi xarakterə malikdir və s.

Nəticədə sosial dövlətin anlayışı verilir, spesifik funksiyaları sadalanır. Sosial dövlət sosial hüquqların reallaşma təminatçısı kimi həm dövlətdaxili, həm də beynəlxalq münaqişə və mübahisələrin həlli vasitəsi olaraq cəmiyyətin bütün vətəndaş və xalqlarının hüquq, azadlıq və maraqlarının müdafiəsinə, ümumilikdə cəmiyyətin inkişafı və layiqli həyatının təşkilinə yönələn institut kimi xarakterizə olunur.

**I fəslin 4-cü paraqrafı** sosial hüquqların təminatı sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərindən bəhs edir. Burada qeyd edilir ki, sosial hüquqlar insan hüquqları qrupunda formalaşdığı üçün insan hüquqları ilə bağlı tənzimetmə sosial hüquqlar üçün də xarakterikdir. Buna görə də bu hüquqların daha real təminatı beynəlxalq və milli hüququn

---

[25] Баглай М.В., Туманов В.А. Малая энциклопедия конституционного права. М., 1998, с.500.
[26] Арановский К.В. Государственное право зарубежных стран. М., 1999, с. 367.

[27] Иваненко В.А., Иваненко В.С. Социальные права человека и социальные обязанности государства: международные и конституционные правовые аспекты. СПб, 2003, с.42-43.

qarşılıqlı əlaqəsində mümkündür. Hüquq normalarının tətbiqində ziddiyyətlər olduqda isə üstünlük beynəlxalq hüquqa verilməlidir. Dövlətdaxili hüquq beynəlxalq hüquqla elə uzlaşdırılmalıdır ki, sonuncunun həyata keçirilməsini təmin etsin. Haqlı olaraq qeyd edilir ki, sosial hüquqlar sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələlərinə münasibətdə sosial hüquqların müdafiəsi müasir dünyanın hazırkı inkişaf reallıqları, inkişaf etmiş dövlətlərin bu sahədə təcrübəsi və beynəlxalq normativ-hüquqi baza əsas götürülməklə həyata keçirilməldir. Çünki, qeyd edildiyi kimi, artıq əksər dövlətlər beynəlxalq hüququn primatlığını qəbul etmiş, beynəlxalq sənədlərlə insan hüquqlarının universallığı tanınmış, bu sahədə möhkəm beynəlxalq-hüquqi əməkdaşlıq yaranmış, milli və beynəlxalq müdafiə sistemi, mübahisənin həllinin məhkəmə mexanizmi formalaşmışdır.

Paraqrafda qeyd edilir ki, beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi özünü onların bir-birinə təsir formasında göstərir. Beynəlxalq hüququn anlayışına əsasən[28], beynəlxalq hüquq dövlətlərin qarşılıqlı razılığı əsasında yaradıldığından (dövlətlər beynəlxalq hüququ yaradır) burada, ilk növbədə, dövlətdaxili hüququn beynəlxalq hüquqa təsiri çıxış edir, əsas isə dövlətlərin beynəlxalq hüquq normalarının yaradılması prosesində özlərinin milli hüquqlarının prinsip və normalarından çıxış etmələridir. Hətta beynəlxalq hüququn primatlığını qəbul etməsinə baxmayaraq H.Kelsen yazırdı ki, beynəlxalq hüququn bir çox normaları bütöv (və ya tamamlanmamış) deyil və milli hüquq normalarının köməyi ilə implementasiya prosesinə ehtiyac duyur[29]. AR konstitusiyasına əsasən, insan hüquq və əsas azadlıqları ilə bağlı normalar o vaxt beynəlxalq müqavilələrə uyğun tətbiq ediləcəkdir ki, bu hüquqlar konstitusiyada təsbit edilmiş olsun.

Bundan başqa, beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələləri çərçivəsində tədqiqat sahəsinin mühüm istiqamətini təşkil edən sosial hüquqların təminatından bəhs edilərək qeyd edilir ki, sosial hüquqlar ikinci nəsil insan hüquqları olduğundan, nisbət məsələləri insan hüquqları sistemində və ona münasibətdə nəzərdən keçirilməlidir. Çünki insan hüquqları ali dəyər elan olunmuş, bu hüquqların təmin edilməsi ideyası bir sıra universal aktlarda əks olunmuş və insan hüquq və azadlıqların müfəssəl siyahısında, demək olar ki, bütün dövlətlərin konstitusiya mətnlərində rast gəlmək mümkündür. Bununla belə, sosial hüquqların təminatının beynəlxalq və dövlətdaxili hüquq sistemində müqayisəsi həm də ona görə əhəmiyyətlidir ki, dövlətlərin sosial siyasətinin məzmun və tərkibinin eyni cür başa düşülməsinə

---

[28] Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı 2000, s. 63.
[29] Kelsen H. Principles of International Law. 2 d ed. New York; Chicago; San Francisco; Toronto; London, 1967, p.553.



imkan verən və buna müvafiq olaraq hər bir dövlətdə sosial tələbata ehtiyacı olan bütün şəxslərin müdafiəsini səmərəli təmin etməyə yönəlmiş bu vaxta qədər vahid bir təcrübə formalaşmamışdır.

**I fəslin 5-ci paraqrafında** sosial hüquqların beynəlxalq hüquqi tənzimlənməsinin mənbələri və prinsipləri verilmişdir. Burada mənbələr həm beynəlxalq, həm də milli hüquqda qarşılıqlı əlaqədə nəzərdən keçirilməklə müxtəlif meyarlara görə təsnifləşdirilmişdir: sosial hüquqlar sahəsində əsas baza prinsipləri əks etdirən beynəlxalq müqavilələr; sosial hüquqlar sahəsində ümumi (universal və regional) normalar; sosial hüquqlar sahəsində ayrı-ayrı münasibətlərin tənzimlənməsinə yönəlmiş normalar (universal və regional); ayrı-ayrı hüquqların və bir qrup şəxslərin hüquqlarının müdafiəsi istiqamətində qəbul edilmiş normalar; sosial hüquqlar sahəsində tövsiyə xarakterli normalar kimi təsnifləşdirilmişdir. Hüquq ədəbiyyatında ilk dəfə olaraq sosial hüquqların əsas, ümumi və xüsusi prinsipləri sadalanmışdır. Belə ki, sosial hüquqlar insan hüquqları qrupunda formalaşdığı üçün onun norma və prinsipləri sosial hüquqlara da aid edilə bilər. Yəni, əsas prinsiplər ümumi insan hüquqlarına aid olan prinsiplərdir ki, bunlar sosial hüquqlar üçün ümumi istiqamətlərin müəyyən olunmasına xidmət edir. Bütün sosial hüquqlar üçün səciyyəvi olan ümumbaşlanğıc normalar ümumi prinsiplər kimi nəzərdən keçirilir ki, bunlar da aşağıdakılardır: sosial sferada bütün insanların hüquq bərabərliyi və ayrı-seçkiliyin qadağan edilməsi prinsipi; layiqli yaşayış vasitələrinə malik olmaq prinsipi; iqtisadi, sosial tərəqqi və inkişafa şəraitin yaradılması prinsipi; sosial hüquqların realizəsinin qanunvericilik və proqram təminatlarından asılı olmaması prinsipi; insan hüquqları və milli iqtisadiyyatın imkanlarının qiymətləndirilməsi prinsipi; sosial hüquqların məhdudlaşdırılmasının və ya azaldılmasının yolverilməzliyi prinsipi; sosial hüquqlar sahəsində beynəlxalq əməkdaşlıq prinsipi aiddir. Xüsusi prinsiplər isə ayrı-ayrı sosial hüquqlar sahəsində rəhbər müddəalar kimi çıxış edir ki, bunlara da misal kimi aşağıdakıları qeyd etmək olar: hər bir insana öz ixtisasına, şəxsi qabiliyyət və maraqlarına uyğun olaraq işləmək üçün şəraitin yaradılması prinsipi; məcburi əməyin qadağan edilməsi prinsipi; bütün işçilərə ədalətli, təhlükəsiz, sağlam və ləyaqətli əmək şəraitinin yaradılması prinsipi; yetkinlik yaşına çatmayanların fiziki və mənəvi ziyan təhlükəsindən xüsusi müdafiə prinsipi; uşaqlara və gənclərə müvafiq sosial, hüquqi və iqtisadi müdafiə prinsipi; işləyən qadınlara xüsusi müdafiənin yaradılması prinsipi; hər bir insana peşə hazırlığı üçün lazımi imkanların yaradılması prinsipi; hər bir insanın sağlamlığının qorunmasında lazımi vasitələrdən istifadə və pulsuz tibbi xidmət prinsipi; bütün işçilərin və onların himayəsində olanların sosial təminat prinsipi; əlillərə xüsusi müdafiə və onların ictimai həyatda fəallığının artırılmasına kömək prinsipi; cəmiyyətin əsas özəyi kimi ailənin hərtərəfli inkişafını təmin etməyə yönəlmiş müvafiq

sosial, hüquqi və iqtisadi müdafiə prinsipi; bütün işçilərə cinsi əlamətə görə ayrı-seçkiliyə məruz qalmadan məşğulluq sahəsində bərabər imkanlar və bərabər rəftar prinsipi; bütün insanlara eyni şərtlərlə işlədikləri müəssisə daxilində informasiya təminatı prinsipi; ahıllara sosial müdafiənin göstərilməsi prinsipi; bütün işçilərin məşğulluğun dayandırıldığı hallarda sosial müdafiə prinsipi; hər bir insanın yoxsulluq və sosial təcrid olunmaqdan müdafiə prinsipi; hər bir insanın mənzillə təmin olunmaq prinsipi və s. Bu prinsiplər vasitəsilə əhalinin sosial müdafiəsinin tərkibi açılır, təminatlar isə bu prinsiplərin (məhkəmə müdafiəsi hüququ, qanunlara riayət edilməsinə nəzarət və kontrol, sosial hüquqlar və s.) reallaşma şərti sayılır.

**II Fəsil "Sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsinin universal sistemi" adlanır və 3 paraqrafdan ibarətdir.**

**II fəslin 1-ci paraqrafında** sosial hüquqların universal beynəlxalq hüquqi tənzimlənməsinin müqavilə əsasları təhlil olunur.

Burada ümumi aktlar kimi, ilk öncə, BMT Nizamnaməsi çərçivəsində sosial hüquqların müdafiəsi məsələləri öyrənilmişdir. Bu hüquqların təminatı kimi Nizamnamənin 1, 55, 57, 63, 73, 74, 76 və 80-ci maddələri çıxış edir. Haqlı olaraq ümumi aktlar kimi ÜİHB, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Minillik Bəyannamə, Sosial tərəqqi və inkişaf Bəyannaməsi götürülmüş və sosial hüquqlar onların məzmunu əsasında nəzərdən keçirilmişdir. Düzdür, BMT Nizamnaməsində insanın sosial hüquqlarının siyahısı verilməsə də, lakin həmin sənəd insan hüquqları sahəsində ümumi standartlar müəyyənləşdirir və digər beynəlxalq sənədlər üçün baza rolunda çıxış edir. Nizamnamədə beynəlxalq hüququn mütərəqqi prinsip və normalarının möhkəmləndirilməsi, beynəlxalq hüququn tarixən formalaşmış qədim demokratik prinsiplərinin inkişaf etdirilməsi bunu bir daha sübut edir. Bundan irəli gələrək, sosial hüquqlarla bağlı normaların da universal səviyyədə qəbul edilməsi və bu hüquqların müdafiəsinin beynəlxalq-hüquqi institut kimi təşəkkül tapması, ilk öncə Nizamnamədən irəli gəlir. Belə ki, bu aktda beynəlxalq münasibətlər tarixində ilk dəfə olaraq insan hüquq və azadlıqlarına heç bir ayrı-seçkilik qoymadan ümumi hörmət prinsipi öz hüquqi təsbitini tapmışdır. Nizamnamənin insan hüquq və azadlıqlarına aid edilən və dövlətlər tərəfindən qəbul edilmiş hüquqi öhdəliklərin, o cümlədən sosial hüquqların tanınması və gözlənilməsi sahəsində vacibliyinin aydınlaşdırılması üçün maraq doğuran müddəaları arasında "Beynəlxalq iqtisadi və sosial əməkdaşlıq" xüsusi yer tutur. Nizamnamə sosial tərəqqiyə və daha artıq azadlıq şəraitində daha yüksək yaşayış standartlarının olmasına yardım göstərmək məqsədi ilə dövlətlərin öz səylərini birləşdirmək zərurətini elan edir.

Milli qanunvericiliyin inkişafında ÜİHB-nin rolu qeyd edilməklə bərabər, ona münasibətdə hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi öyrənilmişdir.



Adı çəkilən sənədin təhlili əsasında belə qənaətə gəlmək mümkündür ki, ilk dəfə olaraq sosial-iqtisadi və mədəni hüquqların bir sistem halına salındığı və onların yerinə yetirilməsi bütün dövlətlərə tövsiyə edilməsi nəzərdə tutulan bu sənəd, universal xarakter daşıyan və yerinə yetirilməsi bütün ölkə və xalqlar üçün zəruri olan, normativ və təcrübi məsələləri təsbit edən əsas prinsip və dəyərləri özündə ehtiva edir, sosial hüquqların təşəkkül tapması və universal tanınmasında həlledici rol oynayır, demək olar ki, mənəvi-siyasi əhəmiyyət kəsb edən bir manifesti xatırladır. Ümumilikdə isə qeyd edilir ki, Bəyannamə və Paktlar BMT çərçivəsində qəbul edilmiş insan hüquqları üzrə bütün universal beynəlxalq aktlar sisteminin (200-dən artıq sənəd) dönüş nöqtəsi, bazisi, sonra isə özəyi, həmçinin insan hüquq və azadlıqlarının növ və məzmununu, çox vaxt da onların reallaşma qaydasını və müdafiə mexanizmini müəyyənləşdirən prinsip və normaların şaxələnmiş sistemini təşkil edən onlarla və yüzlərlə ikitərəfli regional və ikitərəfli beynəlxalq müqavilələr üçün hüquqi istiqamət və standart oldu. Paraqrafda həmçinin yeni əsr üçün tarixi sənəd kimi BMT-nin Minillik Bəyannaməsi və Sosial tərəqqi və inkişaf Bəyannaməsi də ətraflı təhlil olunmuşdur.

Xüsusi aktlara gəldikdə əvvəlcə BƏT çərçivəsində sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi məsələləri təhlil olunmuş, təşkilatın bu sahədəki fəaliyyəti sistemləşdirilmiş və tənzimetmə sferasına görə müqavilələr aşağıdakı kimi qruplaşdırılmışdır: birləşmək azadlığı və kollektiv danışıqlar aparılması; məcburi əməyin qadağan olunması; ayrı-seçkiliyin yolverilməzliyi; məşğulluq sahəsində siyasət; əmək münasibətləri; əmək sferasının tənzimlənməsi və nəzarəti; təhlükəsiz və gigiyenik əmək şəraiti; sosial siyasət; sosial təminat; sosial sığorta; insan ehtiyatlarının inkişafı; əmək haqqı; iş vaxtı və istirahət müddəti; ödənişli məzuniyyət; tibbi müayinə; gecə əməyi; qadınların sosial hüquqları; uşaq və yeniyetmə əməyi; əcnəbi işçi və əməkçi-miqrantlar; işçilərin ayrı-ayrı kateqoriyaları.

Bununla bərabər hazırkı paraqraf üzrə, universal tipli xüsusi müqavilələr kimi, Uşaq hüquqları haqqında BMT Konvensiyası, Əlillərin hüquqları haqqında BMT Konvensiyası, Aclıq və doyunca yeməməzliyin ləğv olunması haqqında Ümumdünya Bəyannaməsi çərçivəsində sosial hüquqların təhlili aparılmışdır.

**II fəslin 2-ci paraqrafında** universal səviyyədə sosial hüquqların təşkilati mexanizmləri çərçivəsində sosial hüquqların müdafiəsi məsələlərindən söhbət açılır. Burada sosial hüquqların müdafiəsi sahəsində BMT-nin baş və köməkçi orqanlarının, həmçinin onun ixtisaslaşmış təsisatlarının rol və səlahiyyətləri, fəaliyyətinin təşkilati-hüquqi məsələləri öyrənilmişdir. Bununla yanaşı, sosial hüquqların konvension müdafiə sistemi də fəslin əsas müzakirə obyekti olmuşdur. Belə ki, sosial hüquqlar sahəsində beynəlxalq nəzarət mexanizminin əlaqələndirmə mərkəzi BMT, xüsusilə onun əsas orqanları Baş Məclis və

ECOSOC, həmçinin İnsan hüquqları üzrə BMT Ali Komissarıdır. Ayrı-ayrı nəzarət funksiyalarını BMT-nin ixtisaslaşdırılmış təsisatları (BƏT, ÜST, YUNESKO və s.), komitə və komissiyalar (məsələn, İnsan hüquqları üzrə Komitə, Uşaq hüquqları üzrə Komitə, İnsan hüquqları üzrə Komissiya, Qadınların vəziyyəti üzrə Komissiya, Sosial inkişaf üzrə Komissiya və s.), Beynəlxalq Məhkəmə, Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti və s. yerinə yetirir. BMT insanın sosial-iqtisadi hüquqlarının beynəlxalq müdafiəsi sahəsində öz məqsəd və vəzifələrini həyata keçirmək üçün şəxsiyyət hüquqlarını təmin və müdafiə etməyə köməklik göstərməyə yönəlmiş müxtəlif növ fəaliyyət həyata keçirir. BMT tədqiqatlar təşkil edir və aparır, məruzələr hazırlayır, dövlətlərə məsləhətlər verir, qərarlar qəbul edir, konvensiyanın layihələrini hazırlayır və sonuncuları qəbul etmək üçün beynəlxalq konfranslar çağırır. Həmçinin o, Nizamnamə üzrə götürülən və beynəlxalq konvensiyalara müvafiq olan öhdəliklərin dövlətlər tərəfindən həyata keçirilməsinə konkret nəzarət funksiyalarını da həyata keçirir.

Bu məsələdə məsuliyyəti BMT Baş Məclis, Baş Məclis çərçivəsində onun köməkçi komitələri, həmçinin səlahiyyəti BMT Nizamnaməsinin X fəsli ilə müəyyən olunan ECOSOC daşıyır. O, BMT Nizamnaməsinə uyğun olaraq irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsi və riayət edilməsinin dəstəklənməsi istiqamətində fəaliyyət göstərir (m.55), iqtisadi, sosial, mədəniyyət, təhsil, səhiyyə və yanaşı sahələrdə beynəlxalq məsələlərə aid tədqiqatlar aparır, məruzələrin hazırlanması və ya istənilən belə məsələlərə aid Baş Məclisə, Birləşmiş Millətlərin Üzvlərinə və maraqlı ixtisaslaşdırılmış təsisatlara, hər bir kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr verir (m.62). ECOSOC ixtisaslaşdırılmış təşkilatların hər hansı biri ilə sazişlərə girərək həmin təsisatlarla məsləhətləşmələr aparmaq və tövsiyələr vermək yolu ilə və BM-ə və Birləşmiş Millətlərin Üzvlərinə tövsiyələr vasitəsilə həmin təsisatların fəaliyyətini əlaqələndirir (m.63), iqtisadi və sosial sahələrdə, o cümlədən insan hüquqlarına dəstək vermək üçün komissiyalar və habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir (m.68), ECOSOC həmçinin BMT Baş Məclisə təqdim etmək üçün konvensiyaların layihələrini hazırlayır və insan hüquqları üzrə beynəlxalq konfranslar çağırır. ECOSOC-un sosial hüquqlar sahəsində BMT tövsiyələrinin dövlətlər tərəfindən yerinə yetirilməsi üzrə və bütövlükdə insan hüquqlarının müdafiəsi haqqında beynəlxalq pakt və konvensiyalara əməl edilməsi üzrə birbaşa nəzarət funksiyalarını həyata keçirmək səlahiyyəti vardır və s.

Paraqrafda həmçinin BMT-nin fəaliyyəti ilə yanaşı, beynəlxalq səviyyədə şəxsiyyətin hüquq və azadlığının qorunması üçün BMT-nin yaranmasından sonra



qəbul edilmiş insan hüquqları üzrə bəzi beynəlxalq müqavilələr əsasında təsis edilmiş konvension orqanların fəaliyyətinə böyük əhəmiyyət verilmişdir. Belə müqavilə mexanizmləri müvafiq beynəlxalq müqavilə müddəalarının yerinə yetirilməsi üzrə dövlətlərin həmin beynəlxalq sənədlərlə öz üzərinə götürdükləri öhdəliklərə əməl edilməsi üzrə əsas nəzarət sistemləri kimi yaradılmışlar. Burada əsasən aşağıdakı universal müqavilə mexanizmləri fərqləndirilir: İnsan hüquqları Komitəsi; İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə; İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə; İşgəncələr əleyhinə Komitə; Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə; Uşaq hüquqları Komitəsi; Əməkçi-miqrantlar və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə; Əlillərin hüquqları üzrə Komitə; Məcburi yoxaçıxmalar üzrə Komitə.

**II fəslin 3-cü paraqrafında** BMT strukturunda geniş ixtisaslaşmış təsisatların sosial hüquqların müdafiəsi sahəsindəki fəaliyyəti təhlil edilmişdir ki, bu məqsədlə də BƏT, ÜST, YUNESKO və FAO fəqlədirilir. Burada adları çəkilən təsisatların təşkilatı mexanizmləri çərçivəsində sosial hüquqların təminatı sahəsindəki fəaliyyət istiqamətləri, təşkilati quruluşu, xarakterik xüsusiyyətləri, müqavilələrin üzv dövlətlər tərəfindən yerinə yetirilməsi vəziyyətinə nəzarət mexanizmi, şikayətlərə baxılması proseduru və s. məsələlər ətraflı öyrənilmişdir. Aparılmış təhlil nəticəsində belə qənaətə gəlmək olar ki, BMT orqanları və ixtisaslaşdırılmış təsisatlarının sosial sferada apardığı iş hələ də kifayət qədər səmərəli deyildir. Bu, bir sıra səbəblərlə izah oluna bilər: fəaliyyətin daimi olmaması (sessiya xarakterli olması); səmərəli qərarların qəbul edilməsi üçün lazımi səlahiyyətlərin olmaması; fəaliyyətlərində daha çox danışıqlara üstünlük verilməsi; danışıqların uzunmüddətli olması; nəzarət funksiyalarının gücləndirilməsinə qarşı birmənalı münasibətlərin olmaması (hətta buna qarşı etirazların olması); beynəlxalq münasibətlərdə ikili standart mövqelər və superdövlət faktoru; insan hüquqları üzrə bir çox normaların ümumi qaydada ifadə olunması və belə normalarda konkret hüquqi sərhədlərin olmaması və s. Digər problemlər də mövcuddur. Məsələn, birincisi, hazırkı mərhələdə “ikinci nəsil” insan hüquqlarının müdafiəsini birinci nəsil hüquqlarla bir səviyyədə təmin etmək mümkün deyil, halbuki bu hüquqların əksəriyyəti gözlənilməsi məhkəmədə tələb oluna bilən "subyektiv hüquq" yaradır (məsələn, tibbi yardım, pensiyanın təyin edilməsi və s. hüquqlar). İkincisi, sosial-iqtisadi hüquqların məhkəmə müdafiəsinin nisbətən uyuşqan olması. Üçüncüsü, insanın sosial-iqtisadi və mədəni hüquqlarının müdafiəsində dövlətlərin aşağı səviyyədə iştirakı (məsələn, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın 171 üzvü olduğu halda onu yalnız 89 ölkə ratifikasiya etmişdir; Əmək haqqının müdafiəsi haqqında Konvensiyada 98 dövlət; Sosial təminat sahəsində bərabərlik haqqında Konvensiyada yalnız 38 dövlət iştirak edir; Təhsil sahəsində ayrı-seçkiliklə mübarizə haqqında Kon-

vensiyanın 101 iştirakçısına münasibətdə onu 49 dövlət ratifikasiya etmişdir). Dördüncüsü, insanın sosial-iqtisadi və mədəni hüquq və azadlıqlarının gözlənilməsinə qeyri-mükəmməl nəzarət mexanizmi (məsələn, fiziki şəxslərin iqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəyə fərdi müraciət imkanları nəzərdə tutulmur). Beşincisi, ruhi xəstələrin olduğu daha zəif əhali qrupunun hüquqlarının müdafiəsinə yönəlmiş xüsusi beynəlxalq sazişlərin olmaması, əlillərin hüquqlarının kifayət qədər tənzimlənməməsi və s.

**III Fəsil "Sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsinin regional sistemi " adlanmaqla 5 paraqrafdan ibarətdir.**

**III fəslin 1-ci paraqrafı** sosial hüquqların müdafiəsinin Avropa sistemini təşkil edir. Belə ki, sosial hüquqların beynəlxalq aləmdə təşəkkül tapması və tənzimlənməsi, o cümlədən müdafiəsininin təmin edilməsi sahəsində hüquqi və nəzarət mexanizmlərinin yaradılması və inkişafı, bu sahədə əməkdaşlığın möhkəmlənməsi Avropa qitəsi üçün xarakterikdir və 1949-cu il AŞ Nizamnaməsinin 1-ci maddəsinin "a" bəndinə müvafiq olaraq, onun əsas məqsədlərindən biridir. Nizamnamənin 3-cü maddəsində qeyd olunur ki, AŞ-in hər bir üzvü qanunun aliliyi və onun yurisdiksiyası çərçivəsində olan hər bir kəsin insan hüquqları və əsas azadlıqlardan istifadə etməsi prinsipini qəbul etməli və AŞ-in məqsədlərinə nail olunması üçün səmimi və aktiv əməkdaşlıq etməlidir. Göründüyü kimi, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi bir çox digər beynəlxalq sənədlərdə olduğu kimi, təkcə ümumi kateqoriyada çıxış etmir, həmçinin AŞ-in konkret məqsədləri sırasında sadalanır. Şura tərəfindən 1950-ci ildə qəbul olunmuş İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya insan hüquqları sahəsində qəbul olunmuş fundamental sənədlərdən biridır. Konvensiya əsasında yaradılan Avropa Məhkəməsi insan hüquqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq mexanizmlərin ən səmərəlisidir. Konvensiya əsasən mülki və siyasi hüquqları əks etdirməsinə baxmayaraq, bu hüquqların sosial hüquqlarla qarşılıqlı əlaqədə olması faktı Məhkəmə tərəfindən müxtəlif işlərdə (Eyri İrlandiyaya qarşı və s.) öz əksini tapmışdır. Beləliklə, Konvensiya: birincisi, bir çox mühüm sosial hüquqları birbaşa və ya dolayısı müdafiə edir; ikincisi, bir çox sosial hüquqların müdafiəsi üçün müfəssəl prosessual təminatları özündə saxlayır. Konvensiya və onun nəzarət mexanizmləri sayəsində bir çox nəzərə çarpacaq dərəcədə nəticələr əldə edilmişdir, belə ki, avropa presedent hüququ üzv-dövlətlərin qanunlarına və sosial reallıqlarına daha dərin nüfuz edir və etməkdədir.

Bununla bərabər sosial hüquqların təminatı kimi ASX çıxış edir. Xartiya sosial sferada insan hüquqlarının müdafiəsinin regional avropa sistemini yaradaraq iştirakçı dövlətlərdə sosial hüquqların həyata keçirilməsi və təminatında mühüm rol oynayır, Avropada sosial insan hüquqlarının təmin olunması bazasını təşkil edir və bununla da Avropa Konvensiyasını tamamlayır. Aİ-də sosial hüquqların müdafiəsi məsələlərini əhatə edən bu paraqraf dissertasiya işi üzrə mühüm aspektləri əhatə edir. Belə ki, Aİ-nin ümumi məqsədi İttifaqa daxil olan ölkələrin vətəndaşlarına sülh və tərəqqi gətirməkdən ibarətdir. Bu məqsədə daim möhkəmləndirilən əməkdaşlıq əsasında nail olunur. Həmin əməkdaşlıq iqtisadi, siyasi və sosial sahələri əhatə edir. İttifaqın iqtisadi və sosial tərəqqini təmin etmək, beynəlxalq miqyasda Aİ-nin vahidliyini möhkəmləndirmək, vahid Avropa vətəndaşlığını tətbiq etmək, azadlığın, təhlükəsizliyin və ədalətin əhatə dairəsini inkişaf etdirmək, İttifaq hüququ əsasında Avropa cəmiyyəti qurmaq kimi vəzifələri vardır. İttifaqın vahid sosial siyasəti sosial tərəfdaşlar, müxtəlif səviyyəli hökumət orqanları, kommunitar institutlar, azad cəmiyyət və beynəlxalq təşkilatlar, ayrı-ayrı vətəndaşlar arasında əməkdaşlığı bildirir. Sosial siyasətin şəffaf vasitələri kifayət qədər səmərəli işləyir ki, bu da Aİ-də sosial məkanın qurulması prosesini təmin edən mexanizmin təkmilləşməsinə imkan verir.

Paraqraf ATƏT çərçivəsində sosial hüquqların müdafiəsi məsələlərini də özündə ehtiva edir ki, burada sosial hüquqların beynəlxalq aləmdə təşəkkül tapması və tənzimlənməsi, o cümlədən sosial hüquqların müdafiəsininin təmin edilməsi sahəsində hüquqi və nəzarət mexanizmlərinin yaradılması və inkişafı, bu sahədə əməkdaşlığın möhkəmlənməsində nüfuzlu beynəlxalq təşkilatlardan biri kimi ATƏT-in mühüm rolundan bəhs edilir.

**III fəslin 2-ci paraqrafında** MDB çərçivəsində sosial hüquqların beynəlxalq hüquqi müdafiəsi məsələlərindən bəhs edilir. Sosial hüquqların tənzimlənməsi məsələsi MDB-nin fəaliyyətinin mühüm aspektinə çevrilsə də, bu sahədə hüquqların təminatı və müdafiəsinin təşkilata üzv dövlətlər tərəfindən yerinə yetirilməmiş qalması bütövlükdə MDB məkanında sosial hüquqların problem etikasının öyrənilməsini və tədqiqini nəzəri və təcrübi cəhətdən zəruri edir.

Mövzu mövcud hüquq ədəbiyyatı və sosial hüquqlar sahəsində qəbul edilmiş mühüm beynəlxalq sənədlər, o cümlədən Sovet İttifaqının ləğv edilməsi və MDB-nin yaranması haqqında Saziş və ona əlavə Protokol, MDB Nizamnaməsi, Alma-Ata Bəyannaməsi, İnsan hüquqları və əsas azadlıqları sahəsində beynəlxalq öhdəliklər haqqında Bəyannamə, Müstəqil dövlətlərin vətəndaşlarının sosial hüquq və təminatları Xartiyası, İnsan hüquqları və əsas azadlıqları haqqında Konvensiya əsasında təhlil olunmuş, sosial sferanın bir sıra ayrı-ayrı sahələrini əhatə edən xüsusi müqavilələr nəzərdən keçirilməklə sosial hüquqlar aşağıdakı kimi qruplaşdırılmışdır: a) sosial təminat və sosial müdafiə sahəsində: Qaçqınlar və məcburi köçkünlərə yardım haqqında Saziş, Əfqanıstanda və döyüş əməliyyatları aparılan digər dövlətlərdə həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinə dövlət sosial yardımı haqqında Saziş və s.; b) əməyin qorunması və mühafizəsi sahəsində: Əməkçi-miqrantların əmək miqrasiyası və sosial müdafiəsi sahəsində əməkdaşlıq haqqında Saziş, Əməyin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş və s.; c)

sağlamlığın qorunması və mühafizəsi sahəsində: MDB-nin iştirakçı-dövlətlərinin ərazisində istehsal olunan dərman vasitələrilə, vaksin və digər immunobioloji preparatlarla, tibbi təyinat və tibb texnikası məmulatları ilə əhalinin təmin edilməsi haqqında Saziş, MDB-nin iştirakçı-dövlətlərinin vətəndaşlarına tibbi yardım göstərilməsi haqqında Saziş və s.; ç) mənzil hüququ sahəsində: MDB-nin iştirakçı-dövlətlərində hərbi qulluqçuların, hərbi xidmətdən təxris olunmuş vətəndaşların və onların ailə üzvlərinin mənzillə təmin edilməsi haqqında Saziş və s.

Aparılan təhlillər belə bir qənaətə gəlməyə imkan verir ki, Birlik çərçivəsində sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi, hər şeydən əvvəl, dövlətlərin müvafiq siyasətinin ümumi prinsiplərinin müəyyən edilməsinə, sosial hüquqların müdafiəsi üzrə vahid standartların yaradılmasına, tənzimləmənin kollizion və maddi-hüquqi metodlarının kombinə edilmiş şəkildə istifadəsində müəyyən istiqamətlər çərçivəsində uyğunlaşdırılmış fəaliyyətin həyata keçirilməsinə yönəlsə də, bu sahədə səmərəli fəaliyyət həyata keçirmək hələ də mümkün olmamışdır. Söyləmək mümkündür ki, insanın sosial hüquqlarının tam reallaşması yalnız MDB məkanında siyasi vəziyyətin sabitləşməsi, sosial həyatın bütün tərəflərinin demokratikləşməsi, sosial bərabərsizliyin aradan qaldırılması, bütün orqanlar və vəzifəli şəxslər tərəfindən sosial hüquqlar sahəsində mövcud standartların tam gözlənilməsi, Birlik iştirakçılarının hüquqi mədəniyyətinin yüksəlməsi və qarşılıqlı əməkdaşlıq sayəsində mümkündür. Nəzərə alınmalıdır ki, bu çərçivədə münasibətlərin qorunub saxlanması və inkişafı təbii-hüquqi əsaslar üzərində möhkəmlənməli, beynəlxalq sülhə təhlükə törədən münaqişə ocaqları belə əməkdaşlığın davam etdirilməsinin vasitəsi kimi çıxış etməməlidir. Bununla bərabər, MDB çərçivəsində sosial hüquqların etibarlı müdafiəsinin təmin edilməsi üzv-dövlətlərin iqtisadi inkişaf səviyyələri ilə qarşılıqlı vəhdət təşkil etməlidir.

**III fəslin 3-cü paraqrafında** Amerika Dövlətləri Təşkilatı çərçivəsində sosial hüquqların müdafiəsi məsələləri, ilk öncə, ADT-nin yaranması, üzv dövlətlər sferası, digər dövlətlərlə əməkdaşlıq əlaqələri, təşkilatın yaradılmasının əsas məqsədləri, quruluşu, baş və köməkçi orqanların, həmçinin komissiyaların fəaliyyət istiqamətləri nəzərdən keçirilir. Paraqrafda təşkilatın fəaliyyətinin normativ bazası, o cümlədən Nizamnaməyə əlavə protokollar, qəbul edilmiş digər beynəlxalq-hüquqi sənədlər sadalanmaqla onların normativ məzmunu geniş təhlil olunmuş, ADT-nin ixtisaslaşdırılmış təsisatlarının sosial hüquqlar sahəsində fəaliyyəti öyrənilmişdir.

Mövzu əsasında Komissiya və Məhkəmə ADT-də insan hüquqlarının müdafiəsi və təşviqinə aid əsas institut kimi qeyd edilməklə, onların fəaliyyət istiqamətləri, funksiyaları, əsas vəzifəsi, qəbul olunmuş qərarların icra mexanizmi, ərizələrlə bağlı tələblər və onların baxılması qaydası, şikayətin qəbul edilənliyi barədə meyarlar, məhkəmənin yurisdiksiyası, həmçinin sosial hüquqların səmərəli müdafiə mexanizmində hələlik lazımi təkmilləşmə



aparılmamasının subyektiv və obyektiv səbəbləri qeyd edilmişdir. Demokratiya və insan hüquqlarının müdafiəsini təşviq etməyi əsas məqsədi hesab edən Təşkilat, haqlı olaraq bu hüquqların realizəsinin mümkünlüyünü üzv ölkələrin iqtisadi, sosial və mədəni inkişafına birgə dəstək verməkdə və həmin dövlətlərin demokratikləşməsini ləngidən yoxsulluq və bu kimi amillərin aradan qaldırılmasında görür.

ADT çərçivəsində insan hüquqları, o cümlədən sosial hüquqlar sahəsində qəbul edilmiş sənədlər sadalanmaqla, bu hüquqların müdafiəsinin əsasən üç beynəlxalq hüquqi mənbə əsasında formalaşdığı göstərilir: ADT Nizamnaməsi; Amerika İnsan hüquq və vəzifələri Bəyannaməsi; İnsan Hüquqları üzrə Amerika Konvensiyası. Hər bir sənəd sosial hüquqların təminatında əhəmiyyətinə görə qiymətləndirilir. Nizamnamə ümumi standartlar müəyyənləşdirdiyi halda, Amerika İnsan hüquq və vəzifələri Bəyannaməsi insan hüquq və azadlıqların kifayət qədər geniş siyahısı ilə yanaşı insanın on vəzifəsini elan etmişdir ki, onların arasında: ümumiyyətlə cəmiyyətə münasibətdə vəzifələr, uşaqlar və valideynlər barəsində vəzifə; təhsil almaq vəzifəsi; qanuna tabelik, cəmiyyətə və millətə xidmət, vergi ödəmək; xarici ölkədə siyasi fəaliyyətdən çəkinmək; işləmək vəzifəsi və s. vardır. Qeyd edilməlidir ki, belə bir məzmunda normaları digər regional təşkilatların sənədlərinin mətnində izləmək mümkün deyil. Göründüyü kimi, Bəyannamə sosial hüquqların pozitiv xüsusiyyətindən çıxış etməklə belə hüquqların reallaşmasında dövlətin məsuliyyət yükünü şəxsiyyət arasında bölür ki, fikrimizcə, bu da nəticədə hüquqların realizəsində dövlət hakimiyyətinin məsuliyyət yükünü azaltmış olur.

Amerikaarası Konvensiyada olan hüquq və azadlıqların siyahısı həm Avropa Konvensiyasında olduğu kimi, həm də Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda təsbit edilən hüquqları əks etdirir. Lakin qeyd etmək lazımdır ki, Amerikaarası Konvensiyada olan hüquqların siyahısı Avropa Konvensiyasında olduğundan xeyli genişdir. Xüsusilə, onda ad hüququ, uşaq hüquqları, vətəndaşlıq və ya milliyyət hüququ, qanun qarşısında bərabərlik hüququ, sığınacaq hüququ və s. kimi hüquqlar saxlanılır. Amerikaarası Konvensiyaya sosial hüquqların ruhunu daha çox əks etdirən İqtisadi, sosial və mədəni hüquqlar haqqında Əlavə Protokol qəbul edilmişdir ki, burada da İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda nəzərdə tutulan hüquqlardan daha həcmli olan eyni adlı hüquqların geniş siyahısı nəzərdə tutulmuşdur. Protokolda əmək hüququ (m.6), ədalətli və qənaətbəxş əmək şəraiti (m.7), həmkarlar ittifaqları hüququ (m.8), sosial təminat hüququ (m.9), sağlamlıq hüququ (m.10), sağlam ətraf mühitdə yaşamaq hüququ (m.11), kifayət qədər qidalanmaq hüququ (m.12), təhsil hüququ (m.13), mədəni həyatda iştirak etmək hüququ (m.14), ailənin formalaşması və

qorunması hüququ (m.15), uşaq hüquqları (m.16), ahılların müdafiəsi (m.17), əlillərin müdafiəsi (m.18) adlı hüquqlar təsbit edilmişdir.

Beləliklə, qeyd edilən region çərçivəsində sosial hüquqların təminatı məsələlərinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, ADT çərçivəsində sosial hüquqlar sahəsində lazımınca beynəlxalq normativ-hüquqi baza yaradılsa da, adıçəkilən hüquqların səmərəli müdafiə mexanizmində hələlik lazımlı təkmilləşmə aparılmamışdır, bunu isə subyektiv və obyektiv səbəblərlə əlaqələndirmək olar. Belə ki, yuxarıda da deyildiyi kimi, insan hüquqları sahəsində qəbul edilmiş sənədlərdə pozitiv hüquq təbiətinə malik olan sosial hüquqlar sahəsində şəxsin üzərinə vəzifələrin qoyulması belə hüquqların realizəsində dövlət hakimiyyətinin məsuliyyətini azaltmış olur. Bundan əlavə, Konvensiya əsasında Məhkəməyə müraciət etməkdə fərdin hüquqlarının məhdudlaşdırılması da bu hüquqların səmərəli müdafiəsinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərir.

Həmçinin Latın Amerikası qitəsində yaşayış və sosial-iqtisadi şəraitin hazırkı durumu, bu ölkələrin xalqlarının bir-birlərinə münasibətdə fərqli həyat tərzləri, qeyri-bərabər inkişaf səviyyəsi, tarixi təcrübə uyğunsuzluğu, siyasi və hüquqi sistemlərin fərqliliyi, bir qrup ölkələrdə insanların elementar hüquqlarından məhrum olması, onların repressiyalara məruz qalmaqla həbsxana və hərbi düşərgələrdə əzab çəkməsi və işgəncələrə məruz qalması faktları bu Qitə xalqlarının əməkdaşlığının ümumi regional beynəlxalq hüquq qaydaları əsasında inkişaf etdirilməsində səmərəli nəticələr vəd etmir. Bununla bərabər, digər faktorlar da bu əməkdaşlığa mənfi təsir edir: sərhəd-qonşuluq münasibətlərinin qeyri-əlaqəliliyi; əlaqələrin qeyri-adekvat faydalılığı; digər region dövlətləri ilə Qitənin ayrı-ayrı üzv dövlətlərinin ikitərəfli münasibətlərinin inkişafı; universal beynəlxalq və digər regional təşkilatların aktiv fəaliyyəti və s.

**III fəslin 4-cü paraqrafı** Asiya regionu, o cümlədən İslam Konfransı Təşkilatı (İKT), Cənub-Şərqi Asiya Ölkələri Assosiasiyası (ASEAN) və Ərəb Dövlətləri Liqası çərçivəsində sosial hüquqların müdafiəsi məsələlərini əhatə edir. Burada regionda sosial hüquqların müdafiəsində iqtisadi, siyasi, sosial və dini xarakterli faktorların mühüm rolu, belə müdafiəni zəruri edən amillər, regional orqanların mövcud olmamasının əsas səbəbləri nəzərdən keçirilir. Paraqraf əsasında həmin təşkilatların quruluşu, yaranma zəruriliyi, funksiyaları və sosial hüquqlar sahəsində fəaliyyəti tənzimləyən beynəlxalq-normativ baza və s. məsələlər geniş statistik məlumatlar əsasında ətraflı təhlil olunmuşdur. Hesab etmək olar ki, regionda mövcud sosial inkişafı şərtləndirən əsas amillər enerji resursları ilə əlaqədardır ki, bu da sosial hüquqların təminatını dövlətin iqtisadi imkanlarından asılı edir. Qeyd edilənlər isə sosial hüquqları insan hüquqları sistemində inkişafından kənarda qoyur.

Müasir beynəlxalq münasibətlər sistemində Asiya regionu bir sıra iqtisadi, siyasi, sosial və dini xarakterli faktorlarla əlaqədar olaraq getdikcə daha



mühüm rol oynamağa başlasa da bu regionda bu günə kimi insan hüquqları üzrə regional orqanlar mövcud deyildir. Bu baxımdan insan hüquqlarının beynəlxalq səviyyədə müdafiəsinin Asiya üzrə konsepsiyasının formalaşdırılması və inkişaf etdirilməsi tendensiyasını yalnız bu və ya digər şəkildə ifadə edən və beynəlxaq təşkilatların qətnamələri formasında qəbul olunan ayrı-ayrı sənədlərdə təsadüf etmək mümkündür[30]. Halbuki, dünya təsərrüfat sisteminə harmonik inteqrasiyanın zəruriliyi, kəskin sosial-iqtisadi və siyasi həyat şəraitinə qarşı üsyan, qərb dünyasının mənəvi dəyərlərinin güclü təsiri altında öz ənənəvi mədəni irsinin qorunması və möhkəmlənməsi uğrunda mübarizə və digər amillər bu regionda insan hüquqlarının, xüsusilə sosial hüquqların müdafiəsini zəruri edir.

Paraqrafda İKT-nın sosial hüquqların müdafiəsi sahəsində qəbul etdiyi bir sıra mühüm sənədlər təhlil olunmuşdur. Təşkilatın 1972-ci il tarixli Nizamnaməsinə (m.2. bənd 1) əsasən "Siyasi, iqtisadi, sosial, mədəni və elmi sferalarda əməkdaşlığın genişlənməsi" və "Bütün müsəlman xalqlarının öz ləyaqəti, müstəqilliyi və milli hüquqlarının müdafiəsi uğrunda mübarizənin gücləndirilməsi" ideyaları bu təşkilatın sosial hüquqlar sahəsində fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir. Bundan başqa, ən böyük nailiyyət 1990-cı ildə Qahirə şəhərində qəbul edilən İnsan hüquqlarının İslam Bəyannaməsidir. Bəyannamə Təşkilat tərəfindən 1983-cü ildə Dəkkə şəhərində qəbul olunan İnsan hüquqları Bəyannaməsinin təkmilləşdirilmiş formasıdır. Bəyannamənin preambulasında insanın layiqli həyat hüququ mühüm müddəa kimi təsbit edilmişdir. Qeyd edilənlərdən başqa, Təşkilatın 2005-ci ildə Məkkə şəhərində keçirilən 3-cü növbədənkənar zirvə toplantısında qəbul etdiyi Bəyannaməsində (Məkkə Bəyannaməsi) insan hüquqlarının müdafiəsi, sosial ədalətliyin riayət olunması, vətəndaş cəmiyyəti institutunun yaradılması sahəsində islahatlar və inkişaf prioritet istiqamətlər kimi göstərilmiş, islam dövlətləri arasında birliyin möhkəmlənməsi üçün iqtisadi və sosial əməkdaşlığın əhəmiyyəti nəzərə alınmaqla savadsızlığın, xəstəlik və epidemiyaların aradan qaldırılması, yoxsulluqla mübarizə təcili strateji məsələlər kimi nəzərdən keçirilmişdir, nəticədə qarşıya qoyulan məqsədlərə çatmaq üçün bu məsələlərin həll olunmasına istiqamətlənən Onillik fəaliyyət Planı qəbul edilmişdir. Təşkilatın 2006-2016-cı illəri əhatə edən Onillik fəaliyyət Planında Fələstinin siyasi, mədəni və sosial-iqtisadi problemləri, Afrika ölkələri əhalisinin yoxsulluq, xəstəlik, savadsızlıq, aclıq, borc yükü və digər məsələlərə xüsusi diqqət yetirilir. Planda islam dünyasının böyük iqtisadi, insan potensialı və enerji ehtiyatlarına malik olması nəzərə alınaraq sosial-iqtisadi inkişaf üzrə təkliflər nəzərdən keçirilmiş, təhsil və mədəniyyət məsələlərinə, qarşıya çıxan problemlərin həll edilməsi yollarına xüsusi diqqət verilmişdir.

---

[30] Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı 2013, s. 381.

Paraqrafda sosial hüquqların hüquqi tənzimlənməsi məsələsi ƏDL çərçivəsində qəbul edilmiş bir sıra sənədlər, o cümlədən bu sahədə mühüm əhəmiyyət kəsb edən onun Nizamnaməsi sayılan Pakt və Ərəb Xartiyası nümunəsində təhlil olunmuşdur. Haqlı olaraq qeyd edilir ki, ərəb dünyası sosial-iqtisadi islahatların müvəffəqiyyətli keçirilməsi üçün kifayət qədər iqtisadi və sosial potensiala malikdir və beynəlxalq münasibətlər sistemində öz yerini layiqincə tutur. Bununla bərabər, bu yolda bir sıra daxili və xarici faktorlar maneə yaradır ki, bunlardan ərəb regionunda hərbi-siyasi qeyri-sabitlik, siyasi strukturların və sosial-iqtisadi inkişaf səviyyəsinin fərqliliyi, çox vaxt sabitliyi pozan xarici qüvvələrin təsirini və s. qeyd etmək zəruridir. Bununla bağlı sosial-iqtisadi inteqrasiya proseslərinin həyata keçirilməsində sosial-iqtisadi və siyasi əməkdaşlığın daha da gücləndirilməsi yaxın gələcəkdə ərəb ölkələri üçün həlli vacib olan məsələlərdən biridir.

Bundan başqa, paraqrafda region üzrə ASEAN-ın fəaliyyəti də nəzərdən keçirilmiş, bu çərçivəsdində yaradılmış Sosial-Mədəni Cəmiyyət sosial hüquqların bilavasitə təminatı kimi müəyyənləşdirilmişdir. Belə ki, Sosial-Mədəni Cəmiyyətin fəaliyyətinə aiddir: Sosial Rifah, Ailə və Əhali üzrə ASEAN İşçi Proqramı; HİV/AİDS üzrə ASEAN İşçi Proqramı; Yaşlı nəslə qayğı ilə bağlı olan ASEAN İşçi Proqramı; ASEAN Səhhət və Sağlamlıq Şəbəkəsi; Gənclərin dayanıqlı işlə təmin edilməsi və qloballaşmanın problemlərinə hazır olması üzrə ASEAN İşçi Proqramı; ASEAN Universitetlər Şəbəkəsi; ASEAN Tələbələrin Mübadilə Proqramı, Gənclər Mədəni Forumu və ASEAN Gənc Natiqlər Forumu; Hər il keçirilən ASEAN Mədəniyyət Həftəsi, ASEAN Gənclər Düşərgəsi və ASEAN Quiz; ASEAN Media Mübadilə Proqramı.

**III fəslin 5-ci paraqrafı** Afrika regionu çərçivəsində sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsindən bəhs edir. Burada regionun tarixi inkişafının özünəməxsus xüsusiyyətləri, sosial-iqtisadi durum və bunu təsdiq edən amillər, insan hüquqlarının vəziyyəti, regionda bu hüquqlarla bağlı irəli sürülən dünyagörüşü nəzərdən keçirilir, sosial hüquqların tənzimləndiyi beynəlxalq-normativ sənədlər ətraflı təhlil olunur. Paraqrafda regionda sosial hüquqların inkişafı müxtəlif mərhələlərlə təqdim edilir və bu mərhələlərdən biri kimi 2001-ci ildə Afrika Birliyi Təşkilatı (ABT) bazasında yaradılmış Afrika İttifaqının fəaliyyəti xüsusi önəm kəsb edir. Bu məqsədlə, mövzu üzrə İttifaqın təsis edilməsinin məqsədi, strukturu və fəaliyyət istiqamətləri qeyd edilmiş, həmçinin sosial hüquqlar sahəsində regionda qəbul edilmiş beynəlxalq sənədlər ətraflı təhlil edilmiş, sosial-iqtisadi inkişaf sahəsində ləng hərəkət və bunun əsas səbəbləri diqqətə çatdırılmış, haqlı olaraq bu faktorlar daim baş verən və davam edən müharibə və silahlı münaqişələrlə əlaqələndirilmişdir.

Bundan başqa, mövzu üzrə İnsan və xalqların hüquqlarının Afrika Xartiyası geniş təhlil olunur. Belə ki, Xartiyada təsbit olunmuş əmək və bərabər



əməyə görə bərabər əmək haqqı hüququ (m.15), fiziki və psixi sağlamlığın maksimum əldə edilməsi hüququ (m.16), təhsil hüququ və ölkənin mədəni həyatında iştirak etmək hüququ (m. 17), ailə hüququ (m.18); ahıl və əmək qabiliyyəti olmayan şəxslərin xüsusi müdafiə hüququ (19) mühüm əhəmiyyət kəsb edir. Bu sənəddə digər hüquqlarla yanaşı, sosial-iqtisadi və mədəni inkişaf problemləri ön plana çəkilir. Bu kompleks 20-24-cü maddələrdə əksini tapmışdır. Belə ki, Xartiyanın 20-ci maddəsinə görə bütün xalqlar iqtisadi və sosial inkişafın istiqamətlərini sərbəst şəkildə seçmək hüququna malikdirlər, bu hüquq müstəsna olaraq xalqların maraqları naminə həyata keçirilir. Xalq heç bir halda bu kimi hüquqlardan məhrum edilə bilməz. Xartiyanın 22-ci maddəsinə görə, bütün xalqlar bəşəriyyətin ümumi irsindən bərabər dərəcədə istifadə etməklə, o cümlədən öz azadlıqları və orijinallığına layiqli hörmət göstərməklə iqtisadi, sosial və mədəni inkişaf hüququna malikdirlər. Dövlətlər fərdi və ya kollektiv surətdə inkişaf hüququndan istifadə edilməsinin təmin olunmasında məsuldurlar. Xartiyaya əlavə Protokolla insan və xalqların hüquqları üzrə Afrika Məhkəməsinin yaradılması nəzərdə tutulmuşdur ki, bu da sosial hüquqların təminatında mühüm rol oynayır.

Sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi istiqamətində qəbul edilmiş digər mühüm sənədlərdən biri Uşaqların hüquqları və rifahı haqqında Afrika Xartiyasıdır. Xartiyada uşaq hüquqlarının geniş siyahısı təsbit edilmiş və uşaqların hüquqları və rifahı üzrə ekspertlər Komitəsi təsis edilmişdir. Sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsinə dair Afrika regionunda qəbul edilmiş digər sənədlərdən biri Xartiyaya qəbul edilən Qadınların hüquqları haqqında Protokoldur (Maputu Protokolu). Protokolun mətnində digər hüquqlarla yanaşı yaşlı və əlil qadınların, onların fiziki və mənəvi tələblərinə müvafiq olaraq müdafiə olunmaq hüququ barədə xüsusi vurğulanır.

Sonda qeyd edilir ki, sosial xərclərin minimum məhdudlaşdırıldığı, yoxsulluq, səfalət və işsizliyin cərəyan etdiyi, daxili əmanətin aşağı səviyyədə olduğu ölkələrdə sosial müdafiənin təsirli bir sisteminin yaradılması çox çətindir. Afrika ölkələrinin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərindən biri yerli istehsalın aktiv inkişafına, təhsilin yüksək səviyyəsinin təmin olunmasına, elmi nailiyyətlərin və yeni texnologiyaların tətbiq olunmasına yönələn iqtisadi cəhətdən davamlı və sosial ədalətli cəmiyyətin yeni modelinin yaradılması ola bilər.

**IV Fəsil - "Sosial hüquqların təminatında milli mexanizmlərin rolu" - 4 paraqrafda əhatə olunur.**

**IV fəslin 1-ci paraqrafında** konstitusiya nəzarəti sistemində sosial hüquqların müdafiəsi məsələlərindən bəhs edilir. Burada dövlətin siyasi rejiminin demokratik ölçüsü, insan hüquq və əsas azadlıqlarının təminatçısı, qanunvericilik sistemində olan kolliziyaları aradan qaldıran, hüququn tətbiqi praktikasında ahəngdar, məntiqi inkişafı təmin edən, sosial-siyasi subyektlər arasındakı konfliktlərin qarşısını alan

mühüm funksiyalara malik konstitusiya nəzarətinin xüsusi mühüm rolu nəzərdən keçirilir. Paraqrafda konstitusiya nəzarətinin yaranması zəruriliyi, ayrı-ayrı ölkələrdə konstitusiya nəzarətinin həyata keçirilməsi xüsusiyyətləri, müxtəlif ədəbiyyatlarda ümumi (oxşar) əlamətlərinə və konkret əsaslarına görə belə nəzarətin həyata keçirilməsinin sistemləşdirilmiş formaları, konstitusiya nəzarət orqanlarının fəaliyyət istiqamətləri də ətraflı təhlil edilmişdir.

AR-də konstitusiya nəzarəti institutunun hazırkı vəziyyəti və xüsusiyyətləri də mövzu üzrə təhlil olunmuşdur. Respublikamızda konstitusiya nəzarəti institutu iş fəaliyyətini konstitusiya qanunu ilə həyata keçirsə də ümumi istiqamətlər konstitusiya ilə müəyyən olunur. Belə ki, Konstitusiyanın 125-ci maddəsinin II hissəsində deyilir ki, məhkəmə hakimiyyətini AR KM, AR Ali Məhkəməsi, AR apellyasiya məhkəmələri, AR ümumi məhkəmələr və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirir. Həmin maddənin III hissəsində isə qeyd edilir ki, Məhkəmə hakimyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Qeyd edilən normaların quruluşundan görünür ki, Konstitusiya məhkəməsinin müstəqil icraat formada təqdim edilməsi və öndə səslənməsi və prosessual qanunvericiliyə görə yalnız KM-in verdiyi şərhin məhkəmələr üçün məcburi olması məhkəmə hakimiyyəti sistemində onun xüsusi nəzarət orqanı olmasına dəlalət edir. Həmçinin mühüm funksiyası insan və vətəndaşın hüquq və azadlıqlarının müdafiəsi sayılan KM konstitusion nəzarət sferasında öz fəaliyyətinin üsul, həcm və vəzifəsinə görə səlahiyyətli orqan kimi çıxış edir. Bu da onu əminliklə deməyə əsas verir ki, konstitusion ədalət xüsusi orqan kimi AR KM ilə bərqərar ola və tamamlana bilər.

KM sosial hüquqlar sferasında qeyri-konstitusion qanunlardan müdafiəni təmin edərək, qərarların çıxarılmasında təkcə AR Konstitusiyasının əsas sosial hüquqların təsbit edildiyi maddələrinin müddəalarına deyil, həm də digər konstitusion norma və prinsiplərə əsaslanır və ilk növbədə aşağıdakıları nəzərə alır: insanın, onun hüquq və azadlıqlarının ali dəyər olması və dövlətin bu hüquq və azadlıqları tanımaq, gözləmək  və müdafiə etmək vəzifəsini (m. 12); xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin, dövlətin sosial sferada fəaliyyətinin, cəmiyyət və dövlətin yardımına ehtiyacı olan vətəndaşların sosial müdafiəsi üzrə fəaliyyətinin əsas istiqamətlərini (m.16); hamının qanun və məhkəmə qarşısında bərabərliyi, insan və vətəndaş hüquq və azadlıqlarının bərabərliyi və müvafiq olaraq hansısa səbəblərə görə ayrı-seçkiliyin qadağan olunmasını (m.25); AR-də insan və vətəndaşın hüquq və azadlıqlarının dövlət müdafiəsinin təmin olunmasını, həmçinin hər kəsin öz hüquq və azadlıqlarını qanunla qadağan olunmayan bütün vasitələrlə müdafiə edə bilməsini (m.26); hüquq və azadlıqların məhkəmə müdafiəsinin təminatlarını (m.60); Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti



orqanlarının borcudur (m.71); fiziki və hüquqi şəxslərin öz aralarında və ya onlarla dövlət orqanları arasında mövcud mübahisələrin həllində AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə birbaşa istinad edə bilməsini (m.148); AR qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktlar ilə (AR-in Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) AR-in tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələrin tətbiq edilməsi haqqında müddəanı (m.151). Qeyd etmək lazımdır ki, AR KM bu kateqoriyalı işlər üzrə özünün demək olar ki, bütün qərarlarında beynəlxalq hüquq normalarına müraciət etmiş və bu zaman öz qərarlarında başlıca olaraq ÜİHB-nin, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktın, AR tərəfindən ratifikasiya olunmuş BƏT Konvensiyalarının, İnsan hüquq və əsas azadlıqları haqqında Avropa Konvensiyası və digər mühüm beynəlxalq sənədlərin  müddəalarına əsaslanmışdır.

Paraqrafda konstitusiya hüququnun spesifik təminatı kimi çıxış edən fərdi şikayət institutuna, konstitusiya nəzarəti orqanlarının qərarlarının hüquqi nəticələri və onların icra mexanizmləri məsələlərinə xüsusi yer ayrılmış, KM-in sosial sferada hüquq və azadlıqların müdafiəsi sahəsindəki təcrübəsi öyrənilmişdir. Həmçinin konstitusiya nəzarəti sahəsində müxtəlif modellərin müqayisəli təhlili aparılmış, ayrı-ayrı dövlətlərin təcrübəsi öyrənilmişdir.

Qeyd edilənlərlə yanaşı, sosial hüquqların səmərəli müdafiəsinin həyata keçirilməsi məqsədilə təkliflər irəli sürülmüşdür. Haqlı olaraq qeyd edilir ki, dövlətin sosial siyasətinin öz ifadəsini Konstitusiyada və digər sosial qanunvericilikdə tapması onların real həyatda gerçəkləşməsinin göstəricisi hesab edilə bilməz. Başqa sözlə desək, yaxşı konstitusiya və qanunlar yazmaq və qəbul etmək ölkənin demokratik inkişafı və hüquqi dövlət quruculuğu üçün hələ kifayət deyil. Buna görə də dövlətlər dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin konstitusiya çərçivəsindən kənara çıxmaması üçün və sosial hüquqların müdafiəsini təmin etmək məqsədilə bu hüquqların institusional və hüquqi prosedurlar sistemini yaratmalıdırlar. Həmçinin sosial hüquqların realizəsi dövlətin iqtisadi göstəricilərindən asılı olduğu və pozitiv hüquqlar olaraq dövlətin yaxından müdaxiləsi nəticəsində mümkün olduğundan həmin hüquqların səmərəli müdafiə olunması məqsədilə, digər insan hüquqlarından fərqli olaraq, KM vasitəsi ilə müdafiə mexanizmində yeni prosedurlar nəzərdə tutulmalıdır.

**IV fəslin 2-ci paraqrafında** sosial hüquqların məhkəmə müdafiəsi məsələlərindən bəhs olunur. Burada məhkəmə müdafiəsi institutunun mahiyyəti, onun dövlət hakimiyyəti sistemində yeri, məhkəmələr (hakimlər) üçün nəzərdə tutulan tələblər və mövcud qanunvericilik və beynəlxalq-hüquqi sənədlər nəzərdən keçirilir, məhkəmə təcrübəsi müqayisəli təhlil olunur.

Paraqrafda qeyd edilir ki, məhkəmə müdafiəsi hüququ Konstitusiya və beynəxalq sənədlərlə qorunan əsas insan hüquq və azadlıqlarına aiddir ki, buraya

insan hüquqlarının II nəsli kimi tanınan sosial hüquqların da müdafiəsi daxildir. Belə ki, AR Konstitusiyasının 60-cı maddəsinin I hissəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verilir. Analoji norma MPM-də (m. 4.1.), ÜİHB-nin 8-ci və digər beynəlxalq sənədlərdə də nəzərdə tutulmuşdur. Göründüyü kimi, məhkəmə müdafiəsi hüququ insanın mütləq hüquqları, ali hüquqi dəyər kimi beynəlxalq hüquq tərəfindən tanınan konstitusiya hüququdur. Burada "hər kəs" qeyri-müəyyən şəxs əvəzliyi onu bildirir ki, müdafiə hüququ ilə istənilən şəxs, o cümlədən sosial hüquqlar kataloqu ilə müdafiə olunan şəxslər (işçilər, sahibkarlar, uşaqlar, qadınlar, əlillər, qocalar və s.) təmin edilir. Konstitusiyanın 60-cı maddəsinin II hissəsinə əsasən hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. Bu normanın məzmunundan müəyyən olunur ki, istənilən mübahisə, o cümlədən sosial hüquqların məzmununa təsir edən hər hansı bir məsələ barədə (pensiya, sosial müdafiə, əmək, istirahət və s.) məhkəməyə şikayət verilə bilər.

Müəllif mövzu üzrə məhkəmə hakimiyyətinə aşağıdakı kimi tərif vermişdir: məhkəmə hakimiyyəti prosessual qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilən və mülki, cinayət, inzibati və hüququn digər sahələrinin normalarının həqiqi və ehtimal olunan pozuntuları ilə əlaqədar olan ixtilafların baxılması və həll edilməsi ilə başa çatan, həmçinin dövlət hakimiyyəti sistemində qanunvericilik və icra hakimiyyətlərinin hüquq çərçivəsində fəaliyyət göstərməiəri üçün onların fəaliyyətini istiqamətləndirərək əsas tarazlaşdırıcı mexanizm kimi çıxış edən məhkəmə fəaliyyətidir.

Beləliklə, mövzunun təhlili müəllifə belə qənaətə gəlməyə əsas verir ki, bu gün məhkəmə hakimiyyəti qarşısında hələ də kifayət qədər həlli vacib məsələlər dayanır: bəzən cinayət işləri üzrə qərar qəbul edilərkən ittiham prokurorunun mövqeyi əsas götürülür; bəraət hökmləri birinci instansiya məhkəmələrində deyil, daha çox yuxarı instansiya məhkəmələrində verilir; ibtidai istintaq orqanının səhvləri lazımınca qiymətləndirilmir; çəkişmə prinsipinin təminatında formal görüntülər hələ də saxlanılmaqdadır (müdafiə hüququ ilə əlaqədar: təqsirləndirilən şəxsin dövlət hesabına vəkildən istifadə etməsi proseduru formal xarakter daşıyır və s.); məhkəmə sorğularına dövlət orqanlarının etinasız yanaşma hallarına rast gəlinir; məhkəmə qərarlarının icrasında süni maneələr mövcuddur və s.

Paraqraf üzrə dövlət fəaliyyətinin bir növü olan cinayət mühakimə icraatının xüsusiyyətləri, əsas məqsədləri, məhkəmə nəzarəti institutunun mahiyyəti, cinayət mühakimə icraatını mülki və inzibati məhkəmə icraatından fərqləndirən əlamətlər, icraatın konstitusion və digər normativ hüquqi əsasları, zərərçəkmiş və təqsirləndirilən şəxslərin, həmçinin belə institut təminatında mənafeləri və qanuni maraqları çərçivəsində digər şəxslərin (ölmüş şəxsin yaxın qohumları,



müdafiəçi və s.) prosessual statusu və onların məhkəmə müdafiəsi hüququndan istifadə etmək imkanları və s. öyrənilmişdir.

Mövzuda insanın sosial hüquqları sferasına aid olan və daha çox hüquqi müdafiəyə ehtiyacı olanların cinayət qanunvericiliyi ilə nəzərdə tutulan mümkün təminatları nəzərdən keçirilir. Belə ki, Cinayət Məcəlləsində (CM) yetkinlik yaşına çatmayanlara, o cümlədən az yaşlı və on dörd yaşı tamam olmayan uşaqlara, hamilə qadınlara, köməksiz vəziyyətdə olan şəxslərə və s. qarşı cinayət qəsdlərində daha sərt cəzalar nəzərdə tutulmuş, onların (yetkinlik yaşına çatmayanlar, o cümlədən az yaşlı və on dörd yaşı tamam olmayan uşaqlar, hamilə qadınlar, köməksiz vəziyyətdə olan şəxslər və s.) törətdiyi cinayət hüquqi əməllər isə digərlərinə nisbətdə humanistləşdirilmişdir. Şəxsiyyət əleyhinə ağır və ya xüsusilə ağır cinayət törətməyə görə beş ildən çox müddətə azadlıqdan məhrum etməyə məhkum edilmiş şəxslər istisna olmaqla, məhkəmə məhkum edilmiş hamilə qadınlar və ya səkkiz yaşına qədər uşağı olan qadınlar, habelə səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər tərəfindən uşaq səkkiz yaşına çatanadək cəzanın çəkilməsini təxirə sala bilər. Uşaq səkkiz yaşına çatdıqda, məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edir və ya cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz edir, yaxud məhkum edilmiş şəxsi cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə göndərir.

CM-də yetkinlik yaşına çatmayanların (uşaqların) cinayət məsuliyyəti məsələləri ayrıca bir bölmədə (V bölmədə) əhatə olunmuşdur. Burada belə şəxslərin anlayışı, cəza təyin edilmə mümkünlüyü və alternativ cəza forması, təyin ediləcək cəzanın növləri, cəza təyin edilərkən nəzərə alınmalı şərtlər nəzərdə tutulur. Bundan başqa, həmin bölmə ilə yetkinlik yaşına çatmayan şəxslər üçün təyin edilən tərbiyəvi xarakterli məcburi tədbirlərin məzmunu, növləri, cəzadan azad edilməsi və şərti olaraq vaxtından əvvəl cəzadan azad edilməsi ilə bağlı məsələlər tənzimlənir. Qeyd edilənlərlə yanaşı, yetkinlik yaşına çatmayanlar üçün cinayət məsuliyyətindən və ya cəza çəkməkdən azad edilərkən, müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə və ittiham hökmünün icrası müddəti ilə əlaqədar cəza çəkməkdən azad etmə ilə əlaqədar nəzərdə tutulan müddətlər yarıbayarı azaldılır. Həmçinin CM-in 92-ci maddəsinə əsasən yetkinlk yaşına çatmayan şəxslər üçün məhkumluğun ödənilməsi müddətlərinin də qısaldılması nəzərdə tutulmuşdur.

Paraqrafda qeyd edilir ki, sosial hüquqlar cinayət hüququ vasitəsilə müdafiə olunaraq cinayətkar qəsdlərdən qorunmaqla yanaşı, bu hüquqların təsir sferası və reallaşma təminatları cinayət hüququnun inkişaf dinamikasına ciddi surətdə təsir edir. Həmçinin sosial hüquqlar çərçivəsində məhkəmənin və bütövlükdə ədalət mühakiməsinin rolu nə qədər böyük, səlahiyyətli orqanlar və yerli idarəetmə orqanları ilə qarşılıqlı münasibətlərdə məhkəmənin sərbəstlik və müstəqilliyi nə qə-

dər çox olarsa, ölkədə qanunçuluq və demokratiyanın səviyyəsi bir o qədər çox və vətəndaşın hüquq və azadlığına ediləcək qəsdlərdən müdafiə də bir o qədər etibarlı olar. Belə hallarda məhkəmə vətəndaş və dövlət arasında əmələ gəlmiş ixtilaflı münasibətlərdə şəxsiyyətin hüquq və azadlıqlarının etibarlı təminatçısı olur.

**IV fəslin 3-cü paraqrafında** sosial hüquqların müdafiəsinin inzibati-hüquqi formaları nəzərdən keçirilir və qeyd edilir ki, inzibati orqanlar tərəfindən inzibati icraat zamanı insan hüquq və azadlıqlarının müdafiəsi mexanizminin təkmilləşdirilməsi hal-hazırda aktual problemlərdən hesab edilir. Paraqrafda sosial hüquqların müdafiəsinin bir sıra inzibati-hüquqi formaları fərqləndirilir. Haqlı olaraq insanın sosial hüquqlarının müdafiəsində Prezident nəzarətinin və hökumətin konstitusiya hüdudunda müəyyən edilmiş mühüm rolu xüsusilə qeyd edilir. Belə ki, Konstitusiyanın 8-ci maddəsinə əsasən AR Prezidenti Azərbaycan dövlətinin başçısıdır. Prezident onun dövlət başçısı kimi statusundan irəli gələn və ona öz funksiyalarını yerinə yetirmək imkanı verən geniş konstitusion səlahiyyətlərə malikdir. Əvvəla prezidentin dövlət hakimiyyəti orqanlarının formalaşdırılması ilə bağlı səlahiyyətləri vardır. Həmçinin AR Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının da təminatçısıdır ki, bunun da beynəlxalq hüquqla təminat verilən sosial hüquqların həyata keçirilməsində mühüm əhəmiyyəti vardır. Bununla yanaşı, AR-də icra hakimiyyəti AR Prezidentinə məxsusdur. Qeyd edilənlərlə yanaşı, Prezident nəzarət institutunun səmərəliliyinin artırılması nöqteyi-nəzərindən dövlət idarəetmə aparatının təkmilləşdirilməsi məqsədi ilə aparılan son konstitusiya islahatı da mühüm əhəmiyyətə malikdir. Bu zaman yaradılmış vitse prezidentlər institutu xüsusi yer tutur. Haqlı olaraq qeyd edilir ki, bu institutlar dünyanın 70-dən çox ölkəsində fəaliyyət göstərir, uzunmüddətli təcrübəyə malikdir[31].

Prezident nəzarətindən fərqli olaraq Konstitusiyanın 119-cu maddəsinə əsasən AR NK nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir, həmçinin dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir. Hökumət sosial müdafiə sahəsində vətəndaşların konstitusiya hüquqlarını reallaşdırır, vətəndaşların əmək hüquqları, sağlamlığının qorunması, əlverişli ətraf mühit hüquqlarının reallaşdırılması üçün tədbirlər görür; şəxsiyyətin təhlükəsizliyi, qanunçuluq, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, mülkiyyətin və ictimai asayişin qorunması, cinayətkarlıqla mübarizə üzrə tədbirlər həyata keçirir.

Həmçinin paraqrafda icra hakimiyyəti orqanlarının səlahiyyətlərinin həyata keçirilməsində qanunvericilik təminatı kimi çıxış edən İnzibati XM-nin vətəndaşların konstitusion sosial hüquqlarının təminatındakı rolu təhlil edilir.

[31] Azərbaycan qəzeti. 24 sentyabr 2016-cı il. №209 (7353).



Nəticədə qeyd edilir ki, insan hüquq və azadlıqlarının icra hakimiyyəti orqanlarının qanunsuz hərəkətlərindən müdafiəsinin səmərəli forması mövcud olsa da, hazırda qarşıda dayanan aktual problemlərdən biri bu orqanlar tərəfindən inzibati məcburiyyət tədbirlərinin həyata keçirilməsi zamanı sosial hüquqların mühafizəsi mexanizminin təkmilləşdirilməsidir.

**IV fəslin 4-cü paraqrafı** sosial hüquqların müdafiəsində Müvəkkil (Ombudsman) institutunun rolu adlanır. Burada bu institutun anlayışı, onun mahiyyətini və təbiətini müəyyənləşdirən müxtəlif baxışlar, yaranması tarixi, dövlət hakimiyyət orqanları sistemində yeri, fəaliyyətinin milli və beynəlxalq hüquqi əsasları, ayrı-ayrı dövlətlərin təcrübəsi, AR-də bu institutun rolu və s. məsələlər nəzərdən keçirilmişdir. Qeyd edilir ki, bir çox ölkələrdə vətəndaşların hüquqlarının müdafiəsinə yönəlmiş mürəkkəb mexanizmin yaradılmasına və fəaliyyət göstərməsinə baxmayaraq, vətəndaşların hüquqları yenə də tez-tez pozulur, onların müdafiə vasitələri isə, təcrübənin göstərdiyi kimi, heç də həmişə səmərəli olmur. Bu da onunla izah oluna bilər ki, müdafiə vasitələri sırf insan və vətəndaşın hüquqlarının təminatına yönəlməyib. Məsələnin həlli məqsədi ilə ictimaiyyət qarşısında həm fəaliyyət göstərən institutların təkmilləşməsi problemi, həmçinin də şəxsiyyətin hüquqlarını qoruyan və ona zəmanət verən yeni institutların yaradılması məsələsi dayanır. Söhbət, dövlət maraqlarının müdafiə edilməsinə deyil, yalnız insan hüquqlarının müdafiəsinə əsaslanaraq məmurların fəaliyyətinə nəzarət edən yeni demokratik institutun inkişafından gedir. Dövlətin funksiyalarının mürəkkəbləşməsi və vəzifəli şəxslərin diskresion səlahiyyətlərinin artması, fikir azadlığının özbaşınalığa səbəb olmaması və yeni yaranmaqda olan dövlət idarəçiliyi formalarının vətəndaş cəmiyyətinə qarşı yönəlməməsi üçün ombudsman institutunun yaradılması müasir dövrün vacib tələblərindən biri idi. Bu institut dövlətlə vətəndaş cəmiyyəti arasında yaranan dərin ziddiyyətlərin aradan qaldırılmasına şərait yaradır, hakimiyyəti qanuniləşdirir, dövlət qulluqçularının hərəkətləri və sui-istifadələri barədə vətəndaşların məlumatlandırılmasını təmin edir.

Bundan başqa, paraqraf üzrə belə nəticəyə gəlinmişdir ki, AR-in sosialyönlü fəaliyyətini nəzərə alaraq bu təsisatın strukturunda "sosial hüquqların müdafiəsi" şöbəsinin yaradılması da mühüm məsələlərdən hesab edilməlidir. Bu həm də onunla əlaqədardır ki, dövlətçilik təcrübəsi çox da uzaq tarixi dövrü əhatə etmir, qanunvericilik təcrübəsi demək olar ki, 1995-ci ildən, yeni Konstitusiyanın yaranmasından etibarən yaranmağa başlamış, məhkəmə təcrübəsi lazımınca formalaşmamışdır. Qanunvericiliyin beynəlxalq standartlara uyğunluğu məsələlərində inkişaf istiqamətləri Azərbaycanın AŞ-ə üzv olduğu 2001-ci ildən sonrakı dövrlərə təsadüf edir ki, bu da kifayət qədər müddəti əhatə etmir. Bütün bunlarla bərabər çevik qanunvericilik dəyişiklikləri həyata keçirilir ki, bu hal da sosial hüquqların təminatı məsələlərində müəyyən çətinliklər yaradır:

kadr çatışmazlığı və onlar arasında qeyri-peşəkarlığın yaranması; hüquq-maarifləndirmə işlərinin lazımınca aparılmaması; süründürməçilik; məhkəmələrdə iş yükünün çoxalması və s.

**V Fəsil "Sosial hüquqların təminatı sahəsində beynəlxalq hüquq normalarının və dövlətdaxili qanunvericiliyin müqayisəli təhlili" adlanır və 3 paraqrafdan ibarətdir.**

**V fəslin 1-ci paraqrafı** sosial hüquqlarla bağlı AR qanunvericiliyi və ayrı-ayrı dövlətlərin qanunvericiliyinin müqayisəli təhlilinə (hormonizasiya problemi) həsr olunmuşdur. Bu məqsədlə müxtəlif regionları əhatə edən ayrı-ayrı dövlətlərin: ABŞ, Almaniya, Fransa, İtaliya, İspaniya, Braziliya, Türkiyə, Polşa, Yaponiya və Çin konstitusiyasında sosial hüquqlar AR qanunvericiliyi ilə müqayisəli şəkildə nəzərdən keçirilmiş və müvafiq təkliflər irəli sürülmüşdür. İddiaçının bu fəsil üzrə apardığı təhlil belə bir qənaətə gəlməyə əsas verir ki, konstitusiyalarda təsbit olunan sosial hüquqların nə xarakterik xüsusiyyətini, nə də onların konkret göstəriş dərəcəsini müəyyənləşdirmək mümkün deyil. Göstərilmiş tezislərə əsaslanaraq deyə bilərik ki, cəmiyyətin sabitliyi konstitusion normaların sosial hüquq münasibətləri ilə bağlı tənzimetmə xüsusiyyəti praktik olmalı, reallıqla uzlaşmalı və səmərəli fəaliyyətə xidmət etməlidir.

Həmçinin keçmiş postsovet ölkələrinin (Belarus, Moldova, Ukrayna, Rusiya, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Ermənistan və Tacikistan) qanunvericiliklərinin uyğunluğu məsələsi elmi və praktik əhəmiyyətə malik olduğu üçün bu fəsildə həmin dövlətlərin qanunvericilik aktlarında sosial normaların təsbiti və inkişafı məsələləri müqayisəli formada öyrənilmişdir. Beləliklə, keçmiş postsovet məkanı ölkələrində əməyin, sosial təminatın, əhalinin sağlamlığının, təhsilin, ailənin mühafizə sistemini, həmçinin bu problemlərin tənzimlənməsini nəzərdən keçirdikdə, bu dövlətlərdə sosial siyasətin vahid istiqaməti haqqında belə bir nəticə hasil olur ki, bir sıra fərqlər milli iqtisadi və mədəni şərait ilə əlaqədardır. Həmin dövlətlərin sosial məsələlər üzrə normativ materiallarının (konstitusiya, qanun, fərman) təhlili bu sferadakı qanunların dinamik və demokratik olmasını göstərir. Bununla bərabər keçmiş postsovet məkanı ölkələrdə qanunvericilik imkanları, bu dövlətlər tərəfindən aparılan siyasi, iqtisadi və sosial islahatların məzmun və forması həmin dövlətlərin hüquqi sistemlərinin ümumi ideya əsasında inteqrasiyası barədə yekdil nəticəyə gəlməyə əsas verir.

Bütövlükdə yuxarıda adları qeyd olunan dövlətlərin sosial qanunvericiliklərini nəzərdən keçirsək, görərik ki, bu qanunvericiliyin əsas istiqamətləri təxminən belə tərtib olunub: ailə, ana, uşaq və onlara dövlət yardımı; sosial müdafiə, sosial təminat; sağlamlığın mühafizəsi, istirahət; təhsil, elm, mədəniyyət; əmək, əməyin mühafizəsi, məşğulluğun təmin olunması; mənzil qanunvericiliyi; təbiəti mühafizə, ekoloji qanunlar.



**V fəslin 2-ci paraqrafı** ayrı-ayrı sosial hüquqların (layiqli həyat hüququ; əmək hüququ; sağlam ətraf mühitdə yaşamaq hüququ; tətil hüququ; sosial müdafiə hüququ; mənzil hüququ; işsizlikdən müdafiə hüququ; sosial təminat hüququ; istirahət hüququ; bərabər dəyərli əməyə görə bərabər əmək haqqı hüququ; qadınların sosial müdafiə hüququ; uşaq və yeniyetmələrin sosial müdafiə hüququ; sağlamlıq hüququ; təhsil hüququ; ədalətli və əlverişli əmək şəraiti hüququ; sosial sığorta hüququ; analıq (analığın qorunması) hüququ; həmkarlar ittifaqları hüququ; təhlükəsiz əmək şəraiti hüququ; ahılların sosial müdafiəsi və onlara yardım hüququ; azad iş seçimi hüququ; ailənin sosial müdafiəsi; inkişaf hüququ; ödənişsiz hüquqi yardım almaq hüququ) beynəlxalq və milli hüquqi tənzimlənməsinin xüsusiyyətlərindən bəhs edilir.

Bu paraqrafda insanın sosial hüququnun 24 adda siyahısı verilmiş, onların hər birinin anlayışı, mahiyyəti, hüquq sistemində yeri, xüsusiyyətləri, beynəlxalq və milli hüquqi əsasları və bu sahələrdə müxtəlif elmi baxışlar mövcud fikir müxtəlifliyi əsasında ətraflı təhlil olunmuş və konkret nəticələr irəli sürülmüşdür.

Belə ki, layiqli həyat hüququnun təminatı məqsədilə dövlətlər bir sıra amilləri nəzərə almalıdırlar: düzgün və əlverişli əmək şəraiti hüququ və sosial təminat hüququnun reallaşmasının təmin edilməsi; dövlətin iqtisadi imkanları və ictimai gəlirin bölüşdürülməsi üsulunun müəyyən edilməsi; sahəvi sosial qanunvericilik aktları əsasında minimum sosial standartların müəyyən edilməsi; hər kəsə öz şəxsi səyi, şəxsi təşəbbüsü, ağlı və bacarığı ilə özü və ailəsi üçün maddi rifahı təmin etməsi məqsədilə əlverişli hüquqi, təşkilati və maddi imkanların yaradılması; dayanaqlı sosial inkişafın və maliyyə sabitliyinin təmin edilməsi; sosial tərəfdaşlıqda yeni mexanizmlərin işlənib hazırlanması; bütün dünyada həlli vacib sayılan yoxsulluq probleminin aradan qaldırılması; sosial bərabərsizliyin aradan qaldırılması; bazarların insanların xeyrinə işləməsi üçün ticarətin liberallaşması, ədalətli qiymətlərin təmin edilməsi; inkişafın insan potensialına yönəldilməsi, inkişafın daha ədalətli və demokratik prosesə çevrilməsi üçün hakimiyyətin idarə edilməsində iştirakçıların spektrinin genişlənməsinin bir məqsəd kimi qarşıya qoyulması; iqtisadiyyatın tənzimlənməsi, ədalətli rəqabət, aşkarlığın və mütəmadi hesabatların verilməsinin təmin edilməsi; hakimiyyətin sosial yönümlü siyasi iradəsinin nümayiş etdirilməsi.

Əmək hüququ sahəsində müasir qanunvericiliyin təhlili belə bir nəticəyə gəlməyə imkan verir ki, əmək hüququ, sosial hüquqların kompleks əsasını təşkil edən təbii və əsas insan hüququ olmaqla fərdi və ictimai rifahın əsası sayılan və minimum yaşayış səviyyəsini təmin edən əməklə məşğul olmaq, işsizlikdən müdafiə olunmaq, əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək, beynəlxalq və milli hüquqla təminat verilən və müdafiə olunan norma və prinsiplərin məcmusudur.

Əlverişli ətraf mühitdə yaşamaq hüququ - hər bir şəxs, xalqlar və bütün insanlar

üçün fiziki və psixi sağlamlığın ən yüksək səviyyəsini təmin edən Yer biosferində yaşamaq fürsətini, o cümlədən insan fəaliyyəti nəticəsində qlobal biosfer təhlükəsini aradan qaldırılan vasitələr sistemindən istifadə olunması imkanını bildirir.

Tətil hüququ həyata keçirilməsi qaydası və həddi qanunvericiliklə müəyyən edilən, məqsədi əmək mübahisələrinin həll edilməsinə və ya aradan qaldırılmasına yönələn, son zərurətdən irəli gələn, kollektiv və fərdi əmək münasibətlərində istifadə olunan sosial insan hüququdur.

Sosial müdafiə vətəndaşların, ilk növbədə əhalinin ən ağır maddi vəziyyətdə olan təbəqələrinin inflyasiyadan, işsizlikdən müdafiəsinə yönəldilən dövlət siyasəti[32], əhalinin aztəminatlı və sağlamlığı imkan verməyən qruplarının maddi və mənəvi tələbatını ödəmək üçün dövlətin həyata keçirdiyi tədbirlərin, iqtisadi və sosial mexanizmlərin tətbiqidir[33]. Hər bir insanın sosial müdafiə hüququ fərdin sosial müdafiəsinin möhkəmlənməsinin və əsas hüquq və azadlıqların həyata keçirilməsinin mühüm təminatı kimi çıxış etməklə əhalinin sosial müdafiəsi yüksək ixtisaslı kadrların hazırlanması ilə əlaqədar dövlət tədbirlərini, əhalinin bütün təbəqələrinin pulsuz ümumi və orta təhsil almasını, rəqabət əsasında ali təhsil əldə etməsini, dövlət hesabına səhiyyə və sosial xidmətlər göstərilməsini, insanların əmək fəaliyyəti ilə məşğul olması üçün zəruri olan, sosial müdafiəsinin problemlərindən biri kimi işsizlik və yoxsulluğun güclənməsinin qarşısının alınması ilə bağlı tədbirləri və s. əhatə edir.

Mənzil hüququnun hüquqi təbiəti və məzmunu təkcə hüquq elmi nöqteyi-nəzərindən əhəmiyyət kəsb etmir, bu proses həm də inkişaf etməkdə olan bazar münasibətləri şəraitində müasir dövlət mənzil siyasətinin hüquqi əsaslarının, məsələn, mənzil probleminin həll olunması, vətəndaşların mənzil hüququnun real həyata keçirilməsi üçün mexanizmlərin (o cümlədən hüquqi mexanizmlər) işlənib hazırlanması nöqteyi-nəzərindən də vacibdir. Bundan başqa, dövlətin sosial siyasətdə iradə nümayiş etdirməsi, yaxşı inkişaf etmiş kreditləşmə, xüsusi və bələdiyyə mənzil tikintisi sistemi və s. tədbirləri də bu işə kömək edə bilər.

İstirahət hüququ şəxsin əmək funksiyalarını yerinə yetirməkdən azad olduğu vaxt kəsiyindən öz mülahizələrinə görə istədiyi kimi istifadə edə bilmək imkanını nəzərdə tutan, fiziki, zehni və s. qabiliyyətinin bərpasına yönəlmiş, beynəlxalq və milli hüquqla təminat verilən insanın sosial hüququdur. AR vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsini özünün ali məqsədi və sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratmasını elan etmiş Respublikamızda da bayram günlərinin haqqının ödənilməsi istiqamətində

[32] İqtisadi nəzəriyyə. Dərslik. T.S.Vəliyevin, Ə.P.Babayevin və M.X.Meybullayevin ümumi elmi redaktəsi ilə. Bakı, 2001, s.512.

[33] Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı, 2005, s.121.



qanunverici normaların qəbul edilməsinə zərurət yaranmışdır. Bundan başqa, iş günü ərzində olan fasilələrin haqqının işəgötürən tərəfindən ödənilməsi ədalətli əmək hüququnun mühüm təminatlarından hesab edilməlidir. Belə ki, istənilən halda işçi həmin fasilə müddətindən özünün mülahizəsinə görə istifadə edə bilmir. Çünki qısa zaman kəsiyində (ən çoxu 1 saat) işçinin iş sahəsindən kənara çıxmaqla öz istirahətini təmin etməsi mümkün deyil. Həmçinin 7 və ya 8 saatlıq iş saatı arası fasilənin məzmunu müəssisənin iş ahənginin bərpa edilməsinə xidmət edir. Başqa sözlə desək, işçi bu müddətdən istifadə etməklə və fiziki imkanlarını bərpa etməklə iş gününün növbəti hissəsinə hazırlaşmış olur.

Sağlamlığın mühafizəsi dedikdə, hər bir insanın fiziki və ruhi sağlamlığının qorunması və möhkəmlənməsinə, onun uzun müddətli aktiv həyatının saxlanılmasına, səhhətinin pozulduğu hallarda ona tibbi yardımın göstərilməsinə yönəlmiş siyasi, iqtisadi, hüquqi, sosial, mədəni, elmi, tibbi, sanitar-gigiyenik və anti-epidemik xarakterli tədbirlər məcmusu başa düşülür.

Həmkarlar İttifaqları dövlət orqanlarından, siyasi partiyalardan və ictimai birliklərdən asılı olmadan müstəqil fəaliyyət göstərən, əmək və həmkarlar ittifaqları haqqında qanunvericiliyə riayət olunmasına, əmək hüquqlarının qorunmasına, əməyin mühafizəsinə, əmək mübahisələrinə baxılmasına və işçilərin həyat səviyyəsinə nəzarəti həyata keçirən şəxslərin könüllü təşkilatıdır.

Ailənin sosial müdafiəsini belə müəyyənləşdirmək olar: ailələrin yaşayış təminatına, ailənin formalaşmasına kömək edən, zəmanət verilmiş qənaətbəxş həyat səviyyəsinin təmin olunması üzrə cəmiyyət, dövlət və müxtəlif strukturlar tərəfindən həyata keçirilən kompleks tədbirlər sistemidir.

İnkişaf hüququ insan hüquqlarının üçüncü "nəsli"-nə aid olmaqla bərabər həm də insan hüquqları sistemində sosial hüquqların da inkişafını şərtləndirən əsas hüquqlardandır.

Həmçinin insan və vətəndaşların konstitusion hüquqlarının həyata keçirilməsi üzrə ümumdövlət təminatının mühüm bir hissəsi kimi dövlət tərəfindən zəmanət verilən və maliyyələşdirilən hüquqi yardım xidməti konstitusiya qanunu ilə tənzimlənməli, fəaliyyətin həyata keçirilməsinə isə qanuna əsasən yaradılmış mərkəzi kollegial idarəetmə orqan nəzarət etməlidir.

**V fəslin 3-cü paraqrafı** "AR qanunvericiliyinin təkmilləşdirilməsi sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsinin realizə vasitəsi kimi" adlanır. Burada AR konstitusion və digər qanunvericiliklər səviyyəsində beynəlxalq hüquqi öhdəliklərinə əməl edilməsi təminatları, kolliziyaların aradan qaldırılmasının forma və üsulları, sosial hüquqlar sahəsində beynəlxalq müqavilələrdə iştirakçılıq dərəcəsi, beynəlxalq təşkilatlarla əlaqə, ikitərəfli və çoxtərəfli əməkdaşlıq və s. məsələlər nəzərdən keçirilmişdir. Qeyd edilir ki, beynəlxalq hüquq normaları milli hüquq sistemləri vasitəsilə realizə olunaraq dövlətlərin daxili qanunvericiliyinin inkişafına ciddi təsir edir. İnsan hüquqları,

o cümlədən sosial hüquqlar probleminin artıq bütövlükdə beynəlxalq hüququn tədqiqat obyektinə keçməsi, dövlətlərin bu hüquqlar sahəsində öz üzərlərinə götürdükləri öhdəliklər və bu sahədə beynəlxalq əməkdaşlığın müasir vəziyyəti dediklərimizi təsdiq edir. Həmçinin son dövrün tədqiqatlarının hərtərəfli analizi də göstərir ki, artıq sosial hüquqlar problemi əsasən beynəlxalq hüquqi tədqiqatlar istiqamətində təhlil edilir ki, bu onların bəşəriyyətin və beynəlxalq hüququn əsas dəyərlərindən biri olması ilə izah edilir.

İnsan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi çıxış edən sosial hüquqların da həyata keçirilməsi dövlətin, o cümlədən AR-in qarşısında duran ən mühüm vəzifələrdən biridir. Sosial hüquqlar mühüm beynəlxalq normalarla müəyyən edilsə də, onların daha səmərəli realizəsi məhz AR tərəfindən həmin beynəlxalq standartlara uyğun dövlətdaxili normativ-hüquqi aktların qəbul edilməsini tələb edir ki, bu da Konstitusiyanın 12-ci maddəsinə əsasən AR-in iştirakçısı olduğu beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. AR beynəlxalq hüquq normalarının həyata keçirilməsinin inkorporasiya yolunu seçmişdir. Belə ki, Konstitusiyanın 148-ci maddəsinin II bəndinə görə "AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR-in qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir". Göstərilən norma bütün beynəlxalq müqavilələrin, o cümlədən sosial hüquqlarla bağlı beynəlxalq müqavilələrin ümumi inkorporasiyasını nəzərdə tutur.

Sosial hüquqların təmin edilməsi sahəsində AR tərəfindən xüsusilə mühüm fəaliyyət həyata keçirilir. Hal-hazırda AR insan hüquqları sahəsində 300-dən çox beynəlxalq müqavilənin iştirakçısı və mühüm nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Təkcə bir faktı qeyd etmək lazımdır ki, BƏT-in 70-ə yaxın Konvensiyasına qoşulan dövlətimiz həmin Təşkilatın ən mühüm partnyorlarından hesab edilir. Bu gün də AR sosial hüquqların müdafiəsinin beynəlxalq mexanizmləri ilə sıx əməkdaşlıq edir və onlara müvafiq dövri hesabatlar təqdim edir. Beynəlxalq mexanizmlər tərəfindən irəli sürülən tövsiyələr isə daim AR tərəfindən milli qanunvericiliyin daha da təkmilləşdirilməsində istifadə edilir.

Beləliklə, paraqrafda qeyd edilir ki, respublikamızın müasir inkişaf mərhələsi sosial hüquqların müdafiəsi sahəsində aparılan mütərəqqi islahatların davam etdirilməsini zəruri edir. Bu isə gələcəkdə sosial hüquqlar sferasında milli qanunvericiliyin beynəlxalq hüquq normalarına və prinsiplərə tam uyğunluğunun təmin edilməsini, beynəlxalq qurumlarla bu sahədə yeni əməkdaşlıq strategiyasının hazırlanması və həyata keçirilməsini, sosial hüquqların təminatı baxımından dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsini mühüm və perspektiv vəzifələr kimi müəyyən edir.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar qısa formada əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap olunmuşdur:**




1. Sosial hüquqların təminatı və müdafiəsi məsələlərinin MDB çərçivəsində həlli: problemlər və perspektivlər. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2006, №3 (07), s.14-26.
2. İnsan hüquqlarının müdafiəsi sahəsində beynəlxalq – hüquqi nəzarət. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2006, №4 (08), s.15-23.
3. İnsan hüquqlarının beynəlxalq və dövlətdaxili müdafiə mexanizmi kimi İnsan hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutunun fəaliyyəti. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2007, №1 (09), s. 31-44.
4. Sosial hüquqların müdafiəsi sahəsində Konstitusiya Məhkəməsinin rolu: təcrübə və meyllər. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2007, №2 (10), s. 58-70.
5. Sosial-iqtisadi hüquqların ABŞ-nın konstitusiya sistemində yeri və əhəmiyyəti məsələsi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2007, № 3-4 (11-12), s. 41-48.
6. MDB dövlətlərinin sosial qanunvericiliklərinin ümumi xarakteristikası və müqayisəli təhlili. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri, 19–cu buraxılış. Bakı 2007, s. 538-548.
7. Avropa Sosial Xartiyası və sosial hüquqların təminat sistemi. "Azərbaycan Respublikasında həyata keçirilən islahatlar və beynəlxalq – hüquqi əməkdaşlıq məsələləri" mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 2007, s. 151-158 (S.R.Cəfərovla birlikdə).
8. Sosial müdafiə sistemlərinin Avropa İttifaqı çərçivəsində nəzəri və praktiki əsasları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2008, № 1-2 (13-14), s. 32-38.
9. Avropa Birliyinin sosial siyasətinin inkişaf mərhələləri: problemlər və perspektivlər. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2008, № 3 (15), s. 5-15.
10. Qloballaşma kontekstində sosial-iqtisadi hüquqların müdafiəsi və inkişafı problemi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2008, № 4 (16), s. 26-36.
11. Sosial hüquqların beynəlxalq müdafiə mexanizmləri və bu sahədə qəbul edilmiş mühüm beynəlxalq normalar. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 1 (17), s. 29-41.
12. Avropa İttifaqının vahid sosial siyasətinin formalaşmasının hüquqi əsasları və tənzimlənmə mexanizmləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 2 (18), s. 5-16.
13. Əməyin beynəlxalq-hüquqi tənzimlənməsinin əsas prinsiplərindən biri kimi azad iş seçimi hüququnun normativ əsasları. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 3 (19), s. 31-37.

14. Sosial hüquqlar sistemində işsizlikdən müdafiə hüququ. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2009, № 4 (20), s.16-24.
15. İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası çərçivəsində sosial hüquqların müdafiəsi (İnsan hüquqları üzrə Avropa Məhkəməsinin praktikası). Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı 2009, s. 488-493.
16. Sosial hüquqların həyata keçirilməsi və müdafiəsi sahəsində beynəlxalq nəzarət mexanizmlərinin yaranması və fəaliyyət istiqamətləri. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı 2009, s. 467-473.
17. Layiqli həyat hüququ. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (Humanitar elmlər), Bakı, 2009, s. 274-276.
18. İnsan hüquqlarının təsnifatı baxımından kollektiv hüquqların mahiyyəti. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları (Humanitar elmlər), Bakı 2009 s. 276-278 (G.A.Xasayeva ilə birlikdə).
19. Ahılların sosial müdafiəsi sosial siyasətin mühüm istiqaməti kimi. Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Hüquq elminin müasir problemləri" II Beynəlxalq konfransın tezisləri, Bakı, 2010, s. 278-280.
20. Европейская Социальная Хартия как источник международных обязательств Азербайджанской Республики. Науковi читання, Киiв, 2010, с. 74-81.
21. Sosial sığorta sistemi: tarixi aspektlər və müasir vəziyyət. "Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları" mövzusunda 06-07 may 2010–cu il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları, Bakı, 2010, s.140-146.
22. Место социальных прав в системе прав человека и их основные специфические особенности. Вопросы гуманитарных наук. Москва, 2010, с. 166-171.
23. Sosial hüquqlar sistemində ədalətli və əlverişli əmək şəraiti hüququnun mahiyyəti və əsas xüsusiyyətləri. Nəqliyyat hüququ (elmi-nəzəri, təcrübi jurnal), Bakı, 2010, s. 82-93.
24. Sosial təminat hüququnun təşəkkül tapması və inkişaf perspektivləri: yeni yanaşmalar. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, №1 (21), s. 17-31.
25. Analıq hüququ (analığın qorunması): beynəlxalq və milli təcrübə. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, № 2 (22), s. 5-14.



26. Mənzil hüququnun beynəlxalq-hüquqi tənzimlənməsi və mənzil məsələlərinin Azərbaycan Respublikasında reallaşma yolları: reallıqlar və problemlər. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2010, № 3 (23), s. 12-22.
27. Sosial müdafiə hüququ. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı 2010/01, s. 96-104.
28. İnkişaf hüququ: Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq hüquq. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2011, № 1 (25), s.10-18.
29. Международно-правовые стандарты в сфере охраны здоровья и степень их реализации. Наука I правоохрана Киiв 2011, №4(14), с.38-46.
30. Təhlükəsiz əmək şəraiti hüququnun beynəlxalq-hüquqi tənzimlənməsi və dövlətdaxili qanunvericilik. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2011, № 3(27), s.22-31.
31. Azərbaycan Respublikası qanunvericiliyində ödənişsiz hüquqi yardım və onun reallaşma problemləri. Azərbaycan Milli Elmlər Akademiyası. Məruzələr, 2012, № 6, s. 145-152.
32. Bərabər dəyərli əməyə görə bərabər əmək haqqı prinsipinin normativ hüquqi tənzimlənməsinin beynəlxalq və milli hüquqi əsasları. 10 dekabr beynəlxalq insan hüquqları gününə həsr edilmiş beynəlxalq elmi-praktiki konfrans. Qloballaşma dövründə insan hüquqları və milli hüquq sistemləri. Bakı, 2013, s. 203-204.
33. The mechanism of control of finance and currency of the international monetary fund. International scientific journal Law and Politology, №24, 2013, s.21-26 (L.R.Fərzəliyeva ilə birlikdə).
34. Həmkarlar ittifaqları hüququ. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013,№ 2(34), s.61-69.
35. Ailənin sosial müdafiəsi. Beynəxalq hüquq və inteqrasiya problemləri, 2013, №3 (35), s. 82-89.
36. Afrika regionu çərçivəsində sosial hüquqların hüquqi tənzimlənməsi məsələləri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2015,№ 1(41), s.41-48.
37. Asiya regionunda sosial hüquqların müdafiəsi. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2015,№ 3(43), s.18-26.
38. Qadınların sosial müdafiə hüququ. Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş "H.Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları. 2 cilddə, I cild. Bakı, 2015, s. 26-30.
39. İstirahət hüququ. Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş "H.Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzu-

sunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları. 2 cilddə, I cild. Bakı 2015, s. 51-57.
40. Tətil hüququ. Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyevin anadan olmasının 92-ci il dönümünə həsr olunmuş "H.Əliyevin Azərbaycan Respublikasının hüquq elminin və təhsilinin inkişafında rolu" mövzusunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları. 2 cilddə, I cild. Bakı, 2015, s. 115-119 (Ə.Q.Məmmədovla birlikdə).
41. Amerika Dövlətləri Təşkilatı çərçivəsində sosial hüquqların müdafiəsi. Nəqliyyat hüququ (Elmi-nəzəri, təcrübi jurnal). Bakı 2015, № 4, s. 132-140.
42. Sosial hüquqların beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəri və praktiki problemlər. "Qanun" elmi-hüquq jurnalı. 2016, № 12 (çapdadır).
43. The right to social security in legislation of the republic of Azerbaijan and international law: the state and prospects of development. Journal of Scientific Research and Development. Nigeria. 2016 (çapdadır).
44. Право на социальное обеспечение: содержание и особенности. Научные труды Национального Авиационного Университета. Серия: Юридический Вестник «Воздушное и космическое право», 2016, № 4 (41), с. 24-32.
45. Место социальных прав в системе прав человека: проблемы международно-правового регулирования. Наука і правоохорона. Киев, 2016, № 3, с. 146-152.
46. Sosial hüquqların təminatı sahəsində beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı nisbət məsələləri. Bakı Universitetinin Xəbərləri (Sosial-siyasi elmlər seriyası), 2016, №1, s. 50-57.
47. Sosial hüquqların beynəlxalq hüquqi tənzimlənməsinin mənbələri və prinsipləri. - Bakı Universitetinin Xəbərləri (Sosial-siyasi elmlər seriyası), 2016, №2 (çapdadır).
48. National Mechanisms For Ensuring Social Rights. Khazar Journal of Humanities and Social Sciences, 2017, №2 (çapdadır).
49. İnsan hüquqları sistemində sosial hüquqlar (nəzəri və praktiki məsələlər). Dərs vəsaiti. Bakı, 2008, 350 s.
50. Vəkillik hüququ. Dərs vəsaiti. Bakı, 2012, 379 s.
51. Müasir beynəlxalq və dövlətdaxili hüquqda sosial hüquqların müdafiəsinin nəzəri və praktiki problemləri. Monoqrafiya. Bakı, 2015, 311 s.



**SUMMARY**

Shahriyar Ibrahim Aliyev's dissertation work on subject "International legal regulation of social rights: theory and practice" submitted for obtaining academic degree the Doctor of Laws on specialization 5603.01 "International Law; Human Rights" being an independent, creative and completed research, containing barnd new scientific provisions, is of paramount importance for analysis of the place of social rights in human rights system, as well as, the problems of international and national legal regulation in this direction, mutual relations of international and domestic legal norms in the field of human rights. Being formed on the basis of comparative analyses of wide practice of international treaties, legislation of different states, including the Republic of Azerbaijan, and existent different approaches in the legal literature in the field of human rights, the dissertation work consists of preface, 5 chapters of 20 paragraphs, conclusion and the list of used literature.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

In the first chapter of the dissertation work, which consists of five sub-chapters and named "The place of social rights in the system of international legal regulation", topical issues such as formation history of social rights as objection of international legal regulation, the concept, content and role of social rights in the human rights system, realization problem of social rights, main function of social state as guarantor of social rights, the problems of interrelation of international and domestic law in the field of ensuring social rights, sources and principles of international legal regulation of social rights have been analyzed.

The second chapter of the dissertation work is named "Universal system of international legal regulation of social rights" and consists of three sub-chapters. In this chapter contractual grounds of universal international legal regulation of social rights, organizational mechanisms of social rights in universal level, moreover, UN specialized agencies and protection of social rights have been analyzed.

The third chapter of the dissertation work is named "Regional system of international legal regulation of social rights" and consists of five paragraphs. In this chapter the problems, such as the European system of international legal protection of social rights, international legal protection of social rights within CIS, protection of social rights within Organization of American States, protection of social rights in Asian regions and international legal regulation of social rights in Africa region have been considered.

In the fourth chapter of the dissertation work, which is named "The role of national mechanisms in the protection of social rights" and consists of four sub-chapters, the problems, such as protection of social rights in constitution control system, judicial protection of social rights, administrative-legal forms of the protection of social rights, the role of institution of the Commissioner (Ombudsman) in the protection of social rights have been analyzed.

In the fifth chapter of the dissertation work, which consists of three sub-chapters and named "Comparative analysis of international legal norms and domestic legislation in the field of social rights ensuring", topical issues such as comparative analyses of the legislation of different states, including the Republic of Azerbaijan, related social rights (the problem of harmonization), pecularities of international and national legal regulation of different social rights, and finally, improvement of the legislation of the Republic of Azerbaijan as means of implementation of international legal regulation of social rights have been analyzed.

In conclusion the most important conclusions and recommendations that are made during research, have been presented, furthermore, their theoretical and practical significance for the international and domestic statutory system has been expressed.

**РЕЗЮМЕ**

Диссертационная работа на тему «Международно-правовое регулирование социальных прав: теория и практика», представленная Алиевым Шахрияром Ибрагим оглу на соискание ученой степени доктора наук по праву по специальности 5603.01 – «Международное право; Права человека», является независимым, творческим и завершенным исследованием, отражающим совершенно новые научные положения о месте социальных прав в системе прав человека, включая вопросы международного и внутригосударственного правового регулирования в этом направлении, имеющим очень важное значение с точки зрения анализа вопросов взаимодействия норм международного и внутригосударственного права в сфере прав человека. Диссертационная работа, основанная на сравнительном анализе широкой международной договорной практики, законодательств различных государств, в том числе законодательства Азербайджанской Республики в сфере прав человека, с учетом существующих разногласий в юридической литературе, состоит из введения, пяти глав, включающих 20 параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы диссертационного исследования, указывается степень разработанности и научная новизна темы исследования, перечисляются новые научные положения, представленные на защиту, цели и задачи исследования, его теоретическое и практическое значение.

Первая глава диссертационной работы называется «Место социальных прав в системе международно-правового регулирования» и состоит из пяти параграфов. В этой главе проанализированы такие важные и актуальные вопросы как история становления социальных прав в качестве объекта международно-правового регулирования, понятие и содержание социальных прав, место социальных прав в системе прав человека, проблема реализации социальных прав, основные функции социального государства как гаранта социальных прав, вопросы соотношений международного и внутригосударственного права в сфере обеспечения социальных прав, источники и принципы международно-правового регулирования социальных прав.

Вторая глава диссертационной работы называется «Универсальная система международно-правового регулирования социальных прав» и состоит из трех параграфов. В этой главе проанализированы договорные основы универсального международно-правового регулирования социальных прав, организационные механизмы социальных прав на универсальном уровне, роль специализированных учреждений ООН в деле защиты социальных прав.

Третья глава диссертационной работы называется «Региональная система международно-правового регулирования социальных прав» и состоит из пяти параграфов. В этой главе рассмотрена Европейская система международно-правовой защиты социальных прав, вопросы международно-правовой защиты социальных прав в рамках СНГ, защиты социальных прав в рамках Организации Американских Государств, защиты социальных прав в Азиатском регионе и вопросы международно-правового регулирования социальных прав в рамках Африканского региона.

Четвертая глава диссертационной работы называется «Роль национальных механизмов в обеспечении социальных прав» и состоит из четырех параграфов. В этой главе проанализированы вопросы защиты социальных прав в системе конституционного надзора, вопросы судебной защиты социальных прав, рассмотрены административно-правовые формы защиты социальных прав и роль института уполномоченного (омбудсмена) в защите социальных прав.

Пятая глава диссертационной работы называется «Сравнительный анализ внутригосударственного законодательства и норм международного права в сфере обеспечения социальных прав» и состоит из трех параграфов. В этой главе проведен сравнительный анализ законодательства Азербайджанской Республики и отдельных государств в сфере социальных прав (проблемы гармонизации), особенности международно-правового и внутригосударственного регулирования отдельных социальных прав, и наконец, проанализированы такие важные актуальные вопросы, как усовершенствование законодательства Азербайджанской Республики в качестве средства реализации международно-правового регулирования социальных прав.

В заключительной части диссертационной работы отмечены важные предложения и выводы, связанные с настоящим исследованием, в частности, выражено их теоретическое и практическое значение для международной и внутригосударственной нормативно-правовой системы.



**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ШАХРИЯР ИБРАГИМ оглы АЛИЕВ**

# МЕЖДУНАРОДНО-ПРАВОВОЕ РЕГУЛИРОВАНИЕ СОЦИАЛЬНЫХ ПРАВ: ТЕОРИЯ И ПРАКТИКА

**Специальность: 5603.01 – «Международное право; права человека»;**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора юридических наук**

**БАКУ – 2016**

*Çapa imzalanıb: 01.11.2016. Kağız formatı 60x84 1/16. Sayı 100.*

*«Bakı Universiteti» nəşriyyatı, Bakı, AZ 1148, Z.Xəlilov, 23.*